# BGMİ RAMAZAN AYININ GƏLİŞİ İLƏ BAĞLI MÜSƏLMANLARI TƏBRİK ETDİ

***Rəhmət, bərəkət, fəzilət və mənəvi gözəlliklərlə dolu olan ilahi ziyafət ayı -Ramzanın gəlişi ilə  Bütün Gürcüstan Müsəlmanları İdarəsi ölkə və bütün dünya müsəlmanlarını təbrik edir.***

"Ramazan  ayı ən fəzilətli və müqəddəs bir aydır. Bu ay müsəlmanların oruc tutmaqla mükəlləf olduqları müqəddəs Allah ayıdır. Əvvəli rəhmət, ortası bağışlanma və sonu da cəhənnəm atəşindən qurtuluş olan Ramazan ayında nüsəlmanlar oruc ibadətini yerinə yetirməklə həm cismən və həm də ruhən paklanır, təqva sifətini gücləndirməklə Allaha daha da yaxınlaşmış olurlar.

İlahi kitab olan Qurani-Kərimin nazil olduğu bu bu ayda möminlər günah çirklərindən təmizlənir, oruc imtahanı vasitəsi ilə ictimaiyyətdə yardımlaşma hislərini  çoxaldaraq qonşulara, kimsəsizlərə, möhtaclara baş çəkib onların ehtiyacı ilə maraqlanmanı, əlindən gələn köməyi göstərməyi və bir sözlə xeyirxah saleh əməlləri aşılayır.

Bu sınaq, tövbə, ruzi və bərəkət ayının həyatımıza daxil olması münasibəti ilə əllərimizi Uca Rəbbimizə uzadaraq ondan bağışlanmağı diləyirik. Allah bu rəhmət və bağışlanma ayında namaz, dua və ibadətləri qəbul etsin! Amin!

Ramazanın gəlişi münasibətilə ölkə və dünya müsəlmanlarına bərəkət və səadətdolu günlər arzulayırıq. Uca Rəbbimizdən ölkəmizə sülh, əminamanlıq, firavanlıq və torpaqlarının azadlığını, bütün müsəlman ümmətinə isə vəhdət diləyirik. Bir daha xalqımızı Müqəddəs Ramazannın gəlişi münasibətilə təbrik edirik".

*Bütün Gürcüstan Müsəlmanları İdarəsi*

# BAL AYI



**Yenə də böyük bir şans, yenə də hər anı ömrümüzə bərabər bir fürsət. Şübhəsiz, şansımızı yoxlamağa dəyər. Həm də bu şansdan tərəddüdlə deyil, qətiyyətlə istifadə etməyə çalışmaq gərək. Ona görə ki, həyatımızı yalnız qətiyyətli addımlarla xilas edə bilərik-bulaşıqlıqlardan, rəzilliklərdən, heyvanilikdən - başqa çıxış yolu yox!**

Yenə də Allah bizi - müsəlman ümmətini ziyafətə dəvət edib. Bu ziyafətdə daddıqlarımız ruhumuzun qidası, qəlbimizin safası. İndi ixtiyar sənin, ya insan oğlu insan kimi bu dəvəti qəbul edər, böyük ruh yüksəkliyi ilə Allahın qonağı olar, ya da... Ya da nə çox dünyada nankor insan!

Haşiyə: Bu sözlər heç kəsə tuşlanmayıb. Bu, mənim monoloqumdur, özümə müraciətimdir, sadəcə özümə dediklərimi sizinlə da paylaşıram, ona görə ki, bu şansdan ən yaxşı istifadə etməyimə yardımçı olasınız.

Kimsə təzə bir şey alanda "mübarək olsun!" deyirik. Yəni sağlıqla, salamatlıqla istifadə edəsən! Bir ömrü də sağ və salamat- fikri baxımdan, dünyagörüşü baxımdan, mənəvi baxımdan- başa vurmaq ən böyük zərurət. Çünki insan bütün "şeylər"in ən şərəflisi. Bu bərəkət ayında ömrün mübarək olsun, insanoğlu!

Ramazan Quranın baharıdır. Yəni bu ayda Quran həyatımızda çiçəklənməlidir, ətri ömrümüzü bürüməlidir. Ömrümüz ayəbəayə, surəbəsurə laləzar olmalıdır.

Bahar həm də yenilik, gənclik, inqilab rəmzidir. Quranın baharında baxışımız yenilənməlidir, ruhumuz gəncləşməlidir, qəlbimizdə bir inqilab baş verməlidir. Pisliklərdən, yaxşılıqlara, rəzalətlərdən fəzilətlərə, zülmətdən nura doğru bir inqilab. Bir özünə boylan, nə qədər yeni, nə qədər gənc, nə qədər inqilabçı olduğunu gör! Hələ çox iş görməlisən, deyilmi?

Mələklər yerə enər bu ayda. Ətrafımızı, evimizi bürüyəcək onlar. Atı atın yanında bağlasan, həmrəng olmasalar da həmxasiyyət olarlar, deyiblər. Bəs sən, mələklərəlа ünsiyyət qurmağa, həmxasiyyət olmağa hazırsanmı? Və ya sən mələklərə Allahın "Mən bildiyimi siz bilmirsiniz" cüməsini anlada bilərsənmi? İstərsən məsələyə romantik yanaşaq, sonda mələklərlə əl-ələ verib uzaqlara və həm də lap uzqlara uçub getməyə hazırsanmı?

Yenə də Quranı başına qoyub "Bikə ya Əllah" deyə-deyə səslənəcəksən. Başına qoyduğun Quran baş tacın olacaqmı? Həyat tərzinə çevriləcəkmi? Ölçəcəksənmi özünü Quranla? Qəlbini, sözünü, davranışını? Yoxsa, adət halını alacaq hətta qədr gecələri də?!

***Niyam Aqil***



# MÜBARƏK RAMAZAN AYININ ÜSTÜNLÜKLƏRİ

***Həzrət Peyğəmbəri-Əkrəm (s) buyurmuşdur: "Ramazan ayında Allah xatirinə oruc tutan elə bir mömin yoxdur ki, Allah-taala ona yeddi şeyi əta etməsin:***

***1-Bədənindəki haram ətlər əriyər;***

***2-Allahın rəhmətinə yaxınlaşar;***

***3-Babası Adəmin (behiştdə qadağan olunmuş ağacın meyvəsindən yediyi üçün) xatasınının üstünü örtər;***

***4-Ölüm anlarının çətinliklərini ona asan edər;***

***5-Qiyamətin aclıq və susuzluğundan amanda saxlayar;***

***6-Allah-taala ona behiştin pak yeməklərindən yedizdirər;***

***7-Allah-taala onu cəhhənmə əzabından uzaq edər."***

İslam Peyğəmbəri (s) buyurmuşdur: "Ramazan ayının gecələri ən gözəl gecələr, gündüzləri ən yaxşı gündüzlər, bu ay nəfəs almaq "subhanəllah" zikrinin savabı, yatmaq isə ibadətdir. Mübarək ayda Qurani-kərimin bir ayəsini oxumağın savabı quranın xətminin savabına bərabərdir. Bu ayda əməllər qəbul olar, qədr gecələri min aya (təqribən 84 ilə) bərabərdir".




## RAMAZAN AYI FÜRSƏTLƏR AYIDIR

**• Fürsət tapma:**

İnsanın ən ümdə ehtiyaclarından biri hədəf və amalına çatmaq üçün fürsət tapmasıdır. Həyat axarı boyunca adətən fürsətlər sürətli və ötəri olur. Həzrət Əli (ə) da bunu gözəl bir bənzətmə ilə bəyan edir: "Fürsətlər buludlar kimi sürətlə keçir". Müxtəlif zamanlarda (ramazan ayı, "qədr" gecələri, viladət və şəhadətlər, ərəfə günü, gənclik dönəmi və s.), ayrı-ayrı məkanlarda (müqəddəs məkanlar, Kəbə, Kərbəla, Məşhəd, şəhidlərin büstü və s.) və fərqli əlaqələrdə (müəllim, dost və s.) qərarlaşan fürsətlərdən istifadə böyük müvəffəqiyyətə, onları əldən çıxarmaq isə məğlubiyyətə gətirib çıxarır.

**• Fürsət tanıma:**

Zamanından, məkanından və s. asılı olmayaraq hər bir fürsətdən ali və cüzi dərəcədə istifadə etmək olar. Bəziləri fürsətlərin ali dərəcəsindən qafil olaraq ondan cüzi istifadə ilə kifayətlənirlər. Necə ki, böyük insanlardan böyük hədiyyə almaq mümkün olduğu təqdirdə kiçik hədiyyə ilə kifayətlənirik.

**• Fürsət yaratma:**

Ümidsiklik bəşərin qlobal problemlərindəndir. Ümidsizlik əksər hallarda məhdudiyyət, məhrumiyyət və bəlalardan qaynaqlanır. Əslində (cismi, ailə daxili, iqtisadi, siyasi və s. kimi) məhdudiyyətlər müstəsna fürsətlərin yaranmasına ən gözəl zəmin ola bilərlər. Hər bir problem və məhdudiyyət daxilində iki nemət; İlahi hikmət və şəxsi istedadların kəşfi nemət gizlidir.

**• Nəticə:**

Ramazan ayı ən münasib, ən dəyərli, ən qurucu, ən şirin fürsətlərdəndir. İslam Peyğəmbəri (s) bu xüsusda buyurur: "İnsanlar Ramazan ayında hansı xeyirlərin (fürsətlərin) olduğunu bilsəydilər, Allahdan bütün ilin Ramazan olmasını diləyərdilər".

### 1. Ramazan, səyləri artırma fürsətidir;

Keçmişin nizamlanması və gələcək tədarükü yolunda Ramazan ayı qədər heç bir fürsət təsirli deyildir.

### 2. Ramazan, proqramlaşma və nizam-intizam fürsətidir;

Nizam-intizam proqramlaşma və tənzimatın səmərəsidir. Ramazan ayında ibadi proqramlar dindarları gözəl nizam-intizamlı etməklə yanaşı, qismən etiqadlı və etiqadsız şəxslər də təsirsiz ötüşmür.

### 3. Ramazan maariflənmə fürsətidir;

Dini maarifin o cümlədən ayə, hədis, tarix və məsumların (ə) sünnəsi, ədəb, əxlaq və etiqadların təhlili, tədqiqatı və bəyanı digər aylardan fərqli olaraq bu ayda daha bərəkətli və mətlubdur. Belə məqamda dini münazirələrin, mübahisələrin, sual-cavabların, şübhələrin yaranmasına gözəl zəmin yaranır. Hər bir məsələ Əhli-beyt (ə) sünnəsi, elmi, etiqadı vasitəsilə öz həllini tapdığı təqdirdə insanlarda dini etiqadlar güclənir, bəndəliyə meyllilik artır.

**4. Ramazan, Qurani-kərimə diqqət fürsətdir;**

Qurani-kərim İslam Peyğəmbəri Məhəmmədin (s) yadigarı, səmavi kitab, Allahın kəlamı, insaniyyət nüsxəsi, aşkar və gizli dərdlərin şəfası, bəşər həyatının yaşayış formulu kimi digər aylardan fərqli olaraq Ramazan ayında daha diqqət mərkəzində olur. Bu diqqət qiraət, tərcümə, müsabiqə və s. həddlərlə hüdudlanmamalı, ayələr haqda təfəkkür, onlara əməl, özünə və başqalarına tövsiyə olunmalı və dəyərlərinin qorunması istiqamətində səy göstərilməlidir.

**5. Ramazan, dua və münacat fürsətidir;**

Dua yaradanla aşiqanə əlaqə mexanizmi kimi bu ayda daha arzuolunandır. Ramazan ayı bəhanəsi ilə Quran duaları və məsumlardan (ə) nəql olunan digər müxtəlif duaların məzmunu ilə tanış olur, bəhrələnirik. Bu mübarək ayda oxunan "Səhər", "İftitah", "Əbu-Həmzə Somali", "Cövşan-Kəbir" duaları və münacatlar bəşərin düşdüyü hazırkı böhranı həll etmə yolunda ən gözəl vasitədir.

**6.Ramazan, təqva və dəyər qazanma fürsətidir;**

Ramazan ayının tələblərinə hamının düzgünlüyə riayəti, günahlardan pəhriz, xoşagəlməz adət-ərdən, pis rəftarlardan çəkinmə, habelə ramazan ayının ehtiramın gözləmə məsələləri də daxildir. Ramazan Allahın adlarından sayılır ki, bu da təqvaya işarədir. İnsan təqvalı olduqca Allahın hüzuruna daha da yaxınlaşır. Əgər bu təmrini otuz gün ərzində yerinə yetirsə nəticədə özündə bunu müşahidə edəcəkdir.

**7.Ramazan, Allahla dostluq fürsətidir;**

Bəşərin bugünkü ən qlobal və ən böyük problemi öz başlanğıcından, Xaliqindən ayrı düşməsidir. Ramazan ayında imsaka durmaq, gecəni oyaq qalmaq, aclıq, susuzluq, münacat, dua, iftar anları və digər məqamlar Allahla yaranan fasiləni yaxınlaşdırmaq üçün gözəl fursətlərdir. Uca və mehriban Allah bəndələrini şeytan cəngindən qurtarmaq üçün sanki pusquda durub hər bir bəhanə ilə (qədr gecələri, cümə axşamları, sübh saatları və s.) xam xəyalla Allahdan qaçanları mehr və məhəbbətlə dolu ağuşuna geri qaytarmar istəyir.

**8.Ramazan, humanistlik fürsətidir;**

Bu aydakı aclıq və susuzluq fəqir və miskinlər halını habelə qiyamət gününün aclıq və susuzluğur insana xatırladır. Aclığın və məhrumiyyətin arada qaldırılması üçün atılan addımlar aclıq dər yaşananda daha effektli olur. Duaların birində be deyilir: "İlahi! Bütün fəqirləri doydur!". Duan incəliyi humanistlik hissini gücləndirməsindəd İnsan xudbin olduğu təqdirdə qürur, təkəbbı həsəd və paxıl kimi mənfi xislətlərə mübtə olacaq, əks halda isə ehsan, fədakarlıq, keçəcəkli təvazö, xeyrxahlıq, bəxşiş, humanistlik və s. kir əxlaqi dəyərlərə sahib olacaqdır.

**9. Ramazan, kin-küdurətdən uzaqlaşma fürsətidir;**

İlahi ziyafətdən istifadə etmək bir ç maneələri aradan qaldırır ki, onların ən başlıca Allahın bəndələrinə kin-küdurət, paxıllıq həsəd bəsləməkdir. Bu ayda insanların bir süfı arxasında əyləşməyi, kütləvi şəkildə edilən du lar, qılınan namazlar, diqqətlərin ilahi rəhmə və feyzə yönəlməsi kin-küdurət və s. kimi mər xüsusiyyətlərin minimum həddə düşməsinə gətir çıxarır.

10. Ramazan, ruhi xəstəliklərin müalicə fürsətidir; Bədən və ruh insanın həqiqətini təşl edir. Hər ikisi qidalanma, sağlamlıq, xəstəlik kir məsələlər hər ikisi üçün keçərlidir. Digər aylarc daha çox bədənə qulluq edilirsə, iştahasızlı zəhərlənmə kimi hallarda həkimə müraciət ol nursa, bu ayda da ruhun duaya, namaza, mənə məsələlərə iştəhasını artırmaq üçün ən göz fürsətdir.

***Xəyal Tofiqoğ***



# DİN, DİNDAR VƏ DİNŞÜNAS ÜÇLÜYÜ (QEYDLƏR)

***1. Bir çox insanlar dini anlamada ən primitiv qaydanı belə unudurlar. Qayda belədir:"Mən dini anlamaq istədikdə aşağıdakı üç anlayışı bir-birindən ayırmalıyam:***

***– Din;***

***– Dindar;***

***– Dinşünas."***

***Din- "ilahi mesaj"ları əks etdirən həqiqətlər toplusudur. Dindar- dini mətnlərdə qeyd olunanlara inanıb onlar əsasında həyat sürən birisidir. Dinşünas isə- dini mətnləri (məsələn, İslam dinində Quran və sünnə kimi) tədqiq edib, onları adi dindarlar üçün aydınlaşdıran şəxsdir.***



**NƏTİCƏLƏR:**

1. Dində xəta, səhv, batil, yanlış yoxdur. Çünki o, Allahın məhsuludur.

2. Dindar dini əməli müstəvidə təmsil etməyə çalışır. Həm inanır, həm də onun göstərişlərinə, buyuruqlarına əməl edir.

3. Dinşünas dini müddəaları dini mətnlərdən əldə etməyə çalışır. Bununla da dini nəzəri müstəvidə təmsil edir. Yəni müəyyən metod əsasında dini mətnlərdən anladıqlarını "din" adı ilə insanlara təqdim edir.

4. Dindar səhv, xəta edə bilər, çünki məsum deyil.

5. Dinşünasın din adından təqdim etdiyi müddəalar nə həmişə yanlışdır, nə də həmişə doğrudur. Əksinə, bəzən doğru, bəzənsə yanlış ola bilər. Bir sözlə, dinşünas dini mətnləri anlama prosesində xətadan sığortalanmayıb.

6. Bəzən dini nə dindar təmsil edir, nə də dinşünas. Bu, o zaman baş verir ki, onlar xətaya yol verirlər.

7. Dindar səhv bir hərəkətə yol verirsə və ya dinşünas nəsə yanlış bir dini bilgi aşılayırsa ətrafındakılara, "Bunu onlara din söyləyir" – deməklə günahı dinin üzərinə yıxmaq yanlışdır.

8. Həssas və şübhəli nəzərə çarpan durumlarda dərhal "dindar"ı və "dinşünas"ı "din"dən ayırmalıyıq o zamana qədər ki, durum aydınlaşsın.

2.Dinşünas dini düzgün oxumayanda və dindar da ona düzgün əməl etməyəndə, toplumda ictimai fəsadlar yaranmağa başlayır. Deməli, toplumda dini rəngə boyanmış ictimai fəsad varsa, bu zaman ya dinşünas dini düz oxumayıb, ya da dindar dinə düzgün əməl etməyib.

3. Əgər "din" əxlaqi dəyərləri tamamlamaq üçün göndərilibsə (ki, göndərilib), onda həm "dinşünas" dini insani-əxlaqi aspektdən oxumalıdır, həm də "dindar" bu aspekti təzahür etdirəcək şəkildə davranışlarını, rəftarlarını tənzimləməlidir. Bu əsasla, dinin qeyri-insani və qeyri-əxlaqi oxunuşu, təfsir, yozumu dinin mahiyyətinə yaddır. Dindar da öz münasibətlərində bunu nəzər almalıdır.

4. Din, dinşünas və dindar təsvirini üçbucağa bənzətmək olar, belə ki, üçbucağın yuxarı hissəsində din, aşağı hissələrində isə sağda dinşünas və solda dindar yerləşir. Dinşünas dini nəzəri müstəvidə təmsil edirsə, dindar da onu əməli müstəvidə təmsil edir. Din fövqdə dayandığından, həm dinşünas, həm də dindar yuxarıya doğru hərəkət edirlər. Əgər onlar sağlam olmasalar, dini də öz səviyyələrinə endirmiş olacaqlar. Odur ki, zorakılığa meyillik olan mədəniyyətlərdə, atmosferlərdə dinşünas dini zorakı təsvirdə təqdim edir, dindar da zorakılığa gətirib çıxardan əməllər görür.

5. "Din" adına kimisə və ya nəyisə müdafiə edən üç cür adam var:

1. Adam var, dini- Quran və sünnəni müdafiə edir.

2. Adam var, hansısa bir dinşünasın dini görüş və ya görüşlərini müdafiə edir.

3. Adam da var, hansısa bir dindarın dini əməlini, mövqeyini müdafiə edir.

Qeyd: 2 və 3-ü 1-dən ayıran odur ki, 2 və 3-də xəta ehtimalı var, ancaq 1-də isə belə bir ehtimal yoxdur.

6. Dörd növ dinşünaslığı bir-birindən ayırd etmək olar:

-irfani dinşünaslıq;

-teoloji dinşünaslıq;

-fiqhi dinşünaslıq;

-əxlaqi dinşünaslıq.

İrfani dinşünaslıq dini təcrübələri, teoloji dinşünaslıq dini inamlar sistemini, fiqhi dinşünaslıq davranışa dair fiqhi sistemi və əxlaqi dinşünaslıqsa əxlaq elmini mərkəzə almaqla formalaşır. Əksər insanlar fiqh kanalı ilə dini tanıyırlar, bu isə ən yayğın bir dinşünaslıq modelidir. İkinci dərəcədə əxlaqi dinşünaslıq mod-

eli dayanır, bu modelin ardıcılları yaxşılığa əməl edib pislikdən isə çəkinməyi dinin gövhəri hesab edirlər. Bu, onlara görə, dindarca yaşamaq deməkdir. Bu model davamçıları dinin əqli-nəzəri tərəfləri ilə elə də maraqlanmırlar. Bunun əksinə olaraq, teoloji dinşünaslıq modelinin təmsilçiləri daha çox dinin qeyd olunan tərəflərinə diqqət yönəldirlər. Elə buna görə, bu növ dinşünaslıq daha çox elit təbəqədə özünü göstərir. Ən az tapılan dinşünaslıq modeli isə irfani dinşünaslıq modelidir. Bu model ardıcılları mənəvi halları yaşamağı dinin özəyi hesab edirlər.

**Qeyd:** Kimsə yuxarıda sadalanan modellərin hamısını özündə ehtiva edə bilər, bunların arasında heç bir ziddiyyət yoxdur. İnsan çalışmalı, həm mənəvi hal keçirməli, həm nəzəri inamları dədqiq etməli, həm bu inamlardan doğan hüquqi göstərişlərə əməl etməli, həm də əxlaqi dəyəri həyata keçirməlidir.

7. Elələri var ki, növbə dinə, dinşünaslığa və dindara çatdıqda "Necə gəldi" məntiqi ilə onları dəyərləndirməyə və tənqid etməyə başlayırlar.

8. Dinə iki cür baxış var. Belə ki, bir var, birinci şəxs olaraq baxırsan dinə (daxildən baxış bir inanclı kimi), bir də var, üçüncü şəxs olaraq baxırsan ona(xaricdən baxış bir azad şəxs kimi). Nəqədər ki, dinə üçüncü şəxs olaraq baxa bilmirsən, dini olduğu kimi anlaya bilməyəcəksən. Əvvəl, üçüncü şəxs olaraq baxmağı öyrən, sonra birinci şəxs kimi baxarsan dinə. Zənnimcə, dini üçüncü şəxs olaraq oxuyub anlayanlar, onu birinci şəxs kimi oxuduqlarında daha dəqiq anlayırlar. Əksi isə bu effekti verə bilmir.



9. Zənnimcə, heç bir dini oxunuş, dərk, yozum, təfsir, şərh səmadan enən gerçək deyil, nə filan dinşünasın, nə də bəhmən dinşünasın dindən anladıqları bu əlamətlə xarakterizə olunur. Xalis olan yeganə nəsnə, Kantın dili ilə desək, "noumen"- təkcə "vəhy"dir. Ortada isə bizi ona aparan "fenomen"lər var. Hər bir dini oxunuş, dərk, yozum, təfsir, şərh bir fenomendir. Mən sadəcə əmin olmalıyam ki, bu fenomen mənə həmin noumeni göstərir, yoxsa yox. Deməli, dinşünasın dini oxunuşundan, dərkindən bir bilgi məhsulu kimi bəhrələnmək olar, bir şərtlə ki, noumeni əks etdiridyinə əmin olasan.

**Dörd növ dinşünaslığı bir-birindən ayırd etmək olar:**
**-irfani dinşünaslıq;**
**-teoloji dinşünaslıq;**
**-fiqhi dinşünaslıq;**
**-əxlaqi dinşünaslıq.**

10. "Dindarlıq"la "dinşünaslıq" arasında dialektik əlaqə var. Belə ki, həm dinşünaslığımız dindarlığımıza təsir edir, həm də əksinə. Dindarlıq dinşünaslığın təqdim etdiyi anlayışlar əsasında formalaşır və eyni zamanda, əməl prosesində həmin anayışlar daha da dərinləşərək şəffaflaşır. İnsan sağlam dindar olmaq istəyirsə, onda sağlam dinşünaslığa sahib olmalıdır. Əks təqdirdə, əməl nəticəsində yanlış, xarab anlayışları daha da bərkidib, xoşagəlməz nəticələrə yol aça bilər.

11. Dinşünasa müraciətin də bir qaydası var. Necə gəldi, kimə gəldi, nə zaman gəldi, harda gəldi və s. Belə olmaz. Bir qayda olmalıdır. Qaydasızlıq olan yerdə səmimiyyət və ciddilikdən söz gedə bilməz.

12. Hər bir dindarın, ən azı, mənəvi hüququ çatır ki, dinin istənilən müddəası barədə araşdırma aparsın, düşünsün, fikir bildirsin, kiminləsə müzakirə etsin, bir şərtlə ki, əxlaqi baxımdan səmimi və ciddi olsun, elmi baxımdan isə məntiqi normalar daxilində hərəkət eləsin.

13. İki cür dinşünas var: biri var, həmişə əminliklə hər bir suala "Din belə deyir, dinin görüşü budur"- deyə cavab verir, biri də var, həmişə "Din belə deyir"- deyə cavab vermir, əksinə, çox vaxt "Dindən anladığıma görə, belədir"- deyə cavab verir soruşulan suallara. Birinci dinşünasın önfərziyyəsi odur ki, "din" ilə "dini bilik" eyni şeydir və həmişə ikinci birincini əks etdirir, ancaq ikinci dinşünasa görə isə, din ilə dini bilik arasında vəhdət yoxdur, belə ki, bəzən dini bilik dini olduğu kimi əks etdirə, bəzən isə əks etdirməyə bilər.

14. Dinşünas dini doğru oxuyub anlaya bilməsi üçün, dindarsa ona düzgün əməl edə bilməsi üçün ağıldan həm "çıraq", həm "açar", həm də "tərəzi" kimi istifadə etməlidir.

15. Dinşünaslıq və dindarlığımız yeri gələndə həm "Update" olmalıdır, həm də "Format". Bu, qaçılmaz bir durumdur.

***Emin İmanlı***

# İMAM HƏSƏNİ MÜCTƏBA (Ə)

**İmam Əli (ə) və İslam Peyğəmbərinin (s) əziz qızı xanım Fatimeyi-Zəhranın (s) ilk meyvəsi, şiələrin ikinci imamı həzrət Həsən Müctəba (ə) hicrətin 3-cü ili, Ramazan ayının 15-də Mədinə şəhərində dünyaya gəlmişdir. İmam Həsən (ə) təxminən yeddi yaşında ikən Peyğəmbər (s) dünyadan köçdü. Peyğəmbərdən (s) sonra təxminən otuz il atası imam Əli (ə) ilə birgə oldu. Atasının şəhadətindən sonra (hicrətin 40-cı ilindən) on il müddətinə qədər müsəlmanlara imamlıq etmiş və nəhayət, hicrətin 50-ci ilində Müaviyənin hiyləsi ilə qırx səkkiz yaşında zəhərlənmiş və şəhadətə nail olmuşdur. Müqəddəs məzarı Mədinə şəhərinin "Bəqi" qəbiristanlığındadır.**




Bəli, imam Həsən (ə) Rəsulullah (s) kimi böyük bir peyğəmbərin, imam Əli (ə) və xanım Zəhra (ə) kimi ata və ananın qucağında böyümüşdü. "Mübahilə" ayəsində ("Ali-İmran" surəsi, ayə 61) "oğullarımız" təbirinin imam Həsən (ə) və qardaşı imam Hüseyn (ə) barəsində işlədilməsi, eləcə də, "Təthir" ayəsinin Əhli-beyt (ə) haqqında nazil olması onlar üçün əbədi bir iftixar olub, paklıq və müqəddəsliklərini göstərən aydın bir sənəddir.

Əmirəlmömininin Əlinin (ə) şəhadətindən sonra imam Həsən Müctəba (ə) minbərdə danışaraq camaatı onunla beyətə təşviq etdikdə, təkanverici qüvvəyə ehtiyaclı idi ki, "Əzd" qəbiləsindən olan bir nəfər fəryad edərək: "Rəsulullahın (s) Həsən ibn Əlini (ə) yanında əyləşdirib belə buyurduğunu eşitdim: "Məni sevən hər kəs onu (Həsəni) da sevməlidir. Bunu eşidənlər eşitməyənlərə çatdırsınlar. Əgər Rəsulullahın (s) əmri olmasaydı, bunu kimsəyə söyləməzdim!" – deyib öz yerində oturdu. ("Ət-tarixul-kəbir", Buxari, c. 3, s. 428.)

**İMAM HƏSƏNİN (Ə) XÜSUSİYYƏTLƏRİ**

İmam Həsən (ə) kamillik yolunu getmək istəyənlərə fərdi və ictimai siması ilə bənzərsiz bir bələdçi ola biləcək bəşəriyyət simvollarından biridir. Bu haqda nəql edilən rəvayətləri ətraflı şəkildə burada qeyd edə bilmədiyimizdən, bir neçəsi ilə kifayətlənirik:

O həzrətin ibadətdə parlaq siması bəşəriyyət tarixinə gözoxşayan bir gözəllik vermişdir. Bir rəvayətə görə, imam Həsən (ə) buyurmişdur: "Allahın evinə piyada getmədiyim halda, Allahımla görüşməkdən həya edirəm." Buna görə də, o həzrət iyirmi dəfə Mədinədən Məkkəyə piyada getmişdi. ("Əxbari-İsfahan", Əbu Nəim İsfahani, c.5, s.44.) Yenə nəql olunmuşdur: "İmam Həsən (ə) iyirmi beş dəfə piyada olaraq həcc səfərinə getdi." ("Tarixi-xuləfa", Süyuti, s.73.)

O həzrətin diqqətə çarpan ən önəmli xüsusiyyətlərindən biri də, tarixçilərin dilində dastan olmuş xeyirxahlığı və comərdliyi idi. Bir rəvayətdə belə deyilir: "Bir nəfər o həzrətin hüzuruna gələrək möhtac olduğunu bildirdi. İmam "ehtiyacını yazıb gətir" – deyə buyurdu. O, yazıb gətirdikdə, ehtiyacından ikiqat artığını ona əta edərək razı saldı. ("Əl-məhasin", Beyhəqi, s.55.)

O həzrətin əxlaqi xüsusiyyətlərindən biri də, səbirli və yumşaqxasiyyətli olması, riya və özünügöstərməkdən çəkinməsi idi. Bu haqda da bir çox hədislər nəql edilmişdir ki, biz burada onlardan sadəcə biri ilə kifayətlənirik:

Bir nəfər şamlı deyir: "Bir gün Mədinədə çox gözəl və yaraşıqlı simaya sahib olan, əyninə təmiz paltar geyinən və bəzədilmiş bir qatıra minən bir şəxsi gördüm. Kim olduğunu soruşduqda, "Həsən ibn Əli ibn Əbu Talibdir (ə)" – dedilər. Bu zaman qəzəb atəşi bütün bədənimi bürüdü və Əli ibn Əbu Talibin (ə) belə bir övlada sahib olduğuna qısqandım. Yanına gedib "Sən Əbu Talibin oğlusanmı?" – deyə soruşduqda, "Mən Əbu Talibin oğlunun oğluyam!" – deyə buyurdu. Elə həmin anda onu təhqir və söyüş yağışına tutdum. Sözlərimi bitirdikdən sonra, o, "Bu şəhərdə qəribsənmi?" – deyə məndən soruşdu. Dedim: "Bəli, qəribəyəm." Buyurdu: "Mənimlə gəl, əgər evin yoxdursa, qalmağa yer verər, pulun yoxdursa, kömək edər və bütün ehtiyacını ödəyərəm." Ayrılıq vaxtı yer üzündə o həzrətdən daha çox kimisə sevmədiyim duyğusu ilə ondan ayrıldım." ("Əl-kamilu fi zuəfair-rical", İbn Ədiy, c.3, s.1187.)

İslam nöqteyi-nəzərindən varlı və imkanlı şəxslər kasıb və imkansız şəxslərə qarşı böyük məsuliyyət daşıyırlar. Dərin mənəvi əhdlər və müsəlmanlar arasında bərqərar olmuş dini qardaşlıqlara əsasən, varlılar kasıbların ehtiyaclarını mümkün qədər təmin etməyə çalışmalıdırlar. İslam Peyğəmbəri (s) və dini rəhbərlər (imamlar) bu barədə təkcə sifariş deyil, həm də hər biri öz zamanında insansevərlik nümunəsi olmuşlar.

İkinci imam elm, təqva, zahidlik və ibadətlə yanaşı, öz dövrünün səxavətli şəxsi, məzlumların və miskinlərin kö-

məkçisi kimi tanınmışdır. O həzrətin vücudu dərdli ürəklərin, imkansızların pənahı, ehtiyacı olanların ümid yeri idi. Belə ki, bir kasıb belə onun evindən əliboş geri qayıtmazdı. Qəlbi sınmış hər hansı bir şəxs dərdini ona açıb söyləsəydi, İmam (ə) onun dərdinə mütləq bir məlhəm qoyardı. Hətta bəzi vaxtlar imkansız şəxs özü ehtiyacını deməzdən qabaq İmam (ə) onun ehtiyacını ödəyər və ona utanmağa icazə verməzdi.

### İMAM HƏSƏNİN (Ə) ŞƏHADƏTİ

Müaviyənin öz hakimiyyəti dövründə törətdiyi dəhşətli cinayətlərdən biri də Rəsulullahın (s) məhəbbət bəslədiyi imam Həsən Müctəbanı (ə) şəhadətə yetirməsi idi. Tarixdə bu faciə açıq-aşkar qələmə alınmışdır. Bu cinayət belə həyata keçirildi: Müaviyə hiyləgərcəsinə bir sui-qəsd təşkil edərək Əşəs ibn Qeysin qızından (imam Həsənin (ə) həyat yoldaşı) istifadə etməklə İmamı zəhərləyərək şəhadətə yetirdi. Beləliklə, bütün ömrü boyu hiyləgər və xain kimi tanınan Müaviyənin ikiüzlü və nifaq törədən siması bir daha bu cinayətdə camaatın gözü önünə sərgiləndi.

Təbəri imam Həsən Müctəbaya (ə) dəfələrlə zəhər verilməsinə baxmayaraq, hər dəfə xilas olduğunu, lakin sonuncu dəfə ciyəri parçalanaraq ağzından gəldiyi və bu yolla şəhid olduğunu Ümmü Bəkr binti Müsəvvərdən nəql etmişdir. ("Əl-muntəxəbu min zeylil-muzil", Təbəri, s.514, Misir, "Darul-məarif" çapı.)

O həzrətin dəfn mərasimindəki məzlumiyyəti diqqəti daha çox cəlb edir. İmam Həsənin (ə) yaxınları və şiələri o həzrəti öz vəsiyyətinə uyğun olaraq, İslam Peyğəmbərinin (s) məzarı kənarında dəfn etmək istədikdə, Bəni-Üməyyədən bir qrupu Peyğəmbərin (s) zövcəsi Ayişə ilə birlikdə buna qarşı çıxdı. Bu zaman Mərvan ibn Həkəm bu fitnəkarların arasından səslənərək dedi: "Osman "Bəqi"nin ən uzaq bir yerində dəfn edildiyi halda, Həsən ibn Əlinin (ə) Rəsulullahın (s) evində dəfn edilməsinə icazə verəcəyimizi sanırsınızmı?" ("Əl-mənaqib", İbn Şəhr Aşub, c.2, s.175.)

Fitnəkar şəxs qatıra minərək miras yolu ilə Peyğəmbərin (ə) evinə sahib olduğunu iddia edir və canı bahasına olsa belə, imam Həsənin (ə) Rəsulullahın (s) qəbrinin kənarında dəfn edilməsinə mane olacağını bildirirdi. Bu kədərli hadisədən sonra imam Həsəni (ə) "Bəqi" qəbiristanlığında dəfn etdilər.

Rza Şükürlü

# QURANIN VƏ HƏDİSLƏRİN NƏZƏRİNƏ GÖRƏ ORUCUN TƏSİRLƏRİ VƏ FƏZİLƏTLƏRİ

"Ey iman gətirənlər, sizdən əvvəlkilərə yazıldığı kimi sizə (də) oruc yazıldı və qərara alındı, (ki,) bəlkə (ruhunuz qüvvətlənsin və nəfsi istəklərdən) çəkinəsiniz". ("Bəqərə" 183).

Orucun gətirdiyi ilk fayda- təqvadır. Bu, elə bir faydadır ki, insanın həm dünyasını və həm də aqibətini abad edər. Hər kəs fitri olaraq bunu dərk edir ki, əgər ali aləm ilə əlaqəsi varsa, ruhaniyyətin üstün məqamına yüksələr. Edə biləcəyimiz ilk şey odur ki, nəfsimizin yüyənini ələ keçirər və nəfsi istəklərin qarşısını almış olarıq. Maddi həyatı hədəf deyil, vasitə kimi görməyə başlayarıq. Qısası, bizi Allah Təaladan qəflət edən hər bir məşğuliyyətdən uzaq olarıq. Bu təqvadır və ancaq oruc vasitəsilə əldə olunar.

Oruc tutan insan qarın şəhvətindən uzaq olur və nəfsini tərbiyə etməyə başlayır. Özündə günaha qarşı batini qüvvə yaradır və tədricən iradəsinə hakim olmağa başlayar. Bu zaman hər bir günah qarşısında tez təslim olmur və Allah Təalaya yaxınlaşmaqda süstlük etmir. Təbiidir ki, o kəs ki, Allahın əmri ilə içməkdən, yeməkdən və başqa bədən ləzzətlərindən çəkinir, başqa günahlardan çəkinmək üçün daha müti və itaətkar olur.

"Şübhəsiz, Allah (kəlmeyi-şəhadət deyərək əməldə dinə təslim olan) müsəlman kişilər və qadınlar, (İslamın üsulid-dininə və füruid-dininə qəlbən etiqad bəsləyən) mömin kişilər və qadınlar, itaətkar, müti kişilər və qadınlar, doğrudanışan kişilər və qadınlar və səbirli, dözümlü kişilər və qadınlar, qəlbən təvazökar olan kişilər və qadınlar, sədəqə verən kişilər və qadınlar, oruc tutan kişilər və qadınlar, şəhvətlərini qoruyan kişilər və qadınlar və Allaha çox zikr edən kişilər və qadınların hamısı üçün məğfirət (bağışlanmaq) və böyük bir mükafat hazırlamışdır!". ("Əhzab" 35).

Hədislərin nəzərinə görə orucun faydaları:

1. Oruc bədəni sağlam edər. Həzrət Peyğəmbər (s) buyurur: "Oruc tutun ki, sağlam olasınız". Həkimlər müəyyən ediblər ki, insanın yediyi yeməklərin bir hissəsi mədədə xəstəliklərin mənbəyinə çevrilir, çünki bu qidalar bədən tərəfindən cəzb olunmadığına görə, bir çox mikrobların və bakteriyaların yuvasına çevrilir. Bu zərərli maddələr ancaq ac qalınarsa, bədəndən çıxa bilir. Bu tədqiqat əziz Peyğəmbərdən (ə) gələn nurani hədisi təsdiq edir. Həzrət (s) buyurur: "Mədə bütün dərdlərin evidir və oruc- ən yaxşı dərmandır". Müsəlman hər ilin bir ayını oruc tutaraq, yemək yeməkdə ifrat etmir və bədənində yığılan əlavə qidalar da rahat şəkildə dəf ola bilir.

2. İqtisadi tarazlıq. İmam Sadiq (ə) buyurur: "Həqiqətən, Allah orucu vacib etmişdir ki, onun vasitəsilə yoxsullar ilə zənginlər arasında bərabərlik meydana gəlsin. Bu, ona görədir ki, zənginlər heç bir zaman aclıq dərdini hiss etməyiblər və yoxsullara rəhm etsinlər, çünki zənginlər nə zaman (yemək və içməyi) iradə ediblər, onlar üçün əldə olunan olmuşdur. Ona görə də Allah Təala (orucu vacib etmişdir ki) yoxsul və zəngin bəndələri arasında bərabərlik meydana gəlsin".

3. İffətli olmaq. Oruc şəhvətin tüğyanının qarşısını ala bilən ibadətlərdəndir. Ona görə də iffət ilə oruc arasında sıx rabitə mövcuddur. Həzrət Peyğəmbər (s) buyurur: "Ey cavanlar dəstəsi! Sizlərdən hər kimin evlənmək üçün gücü varsa, evlənsin, çünki evlilik səbəb olar ki, insanların namusuna göz yumulsun. Ətəyi iffətsizlikdən qorunsun. O kəsin ki, evlənmək gücü yoxdur, oruc tutsun".

4. Qəlb hüzuru. İmam Baqir (ə) buyurur: "Oruc və həcc insan qəlbinə hüzur verər".

5. Behiştə daxil olmaq. Həzrət Peyğəmbər (s) buyurur: "Behiştdə Rəyyan adlı bir qapı vardır ki, oradan ancaq oruc tutanlar keçər".

6. Mələklər dua edər. Həzrət Peyğəmbər (s) buyurur: "Allah mələkləri vəzifələndirmişdir ki, oruc tutanlara dua etsinlər".

7. Dualar yerinə yetər. İmam Rza (ə) buyurur: "Oruc tutanların iftar zamanı duaları yerinə yetər".

8. İxlas. Həzrət Zəhra (s.ə) buyurur: "Allah orucu ixlası möhkəmləndirmək üçün vacib buyurmuşdur".

9. Şeytanı insandan uzaq edər.

10. Əməllər qəbul olar.

# DİNİ DƏVƏTDƏ İNCƏSƏNƏTDƏN İSTİFADƏ ETMƏK



Dinin həqiqətini insanlara çatdırmaq, onları maarifləndirmək yalnız söhbət, movizə yolu ilə deyil, incəsənət və sənətkarlıq yolu ilə də olmalıdır. Çünki insan fitrəti gözəlliyi və cazibədarlığı sevir. İncəsənət də, gözəllik və cazibədarlıqla dolu bir zərif sənətdir. Bəzən haqqında kitablar yazılmış, uzun-uzadı söhbətlər edilmiş bir məsələ, incəsənətin möcüzəsi ilə sadə bir rəsm əsərində, gözəl formada təsvir edildiyi üçün ən üstün nəticəni əldə edir. Burada incəsənət dedikdə naqqaşlıq, memarlıq, teatr, film, cizgi filmləri və sair kimi məsələlər nəzərdə tutulur. Bu dəyərli vasitələrdən pak mənəviyyatı və düzgün düşüncələri yaymaq və anlatmaq üçün istifadə etmək zəruridir. İncəsənətdən pak yolda bəhrələnmək, dinimiz tərəfindən də təsdiq edilmişdir. Çünki bu həm gözəllik, həm bacarıq və həm də daha aydın, rahat şəkildə insanları paklığa çəkmək üçün bir vasitədir. Quranikərimdə Həzrət İbrahim (ə) ölülərin dirilməsinə tam yəqin tapmaq üçün Allahdan bunu gözləri ilə görmək istədiyini xahiş etdikdə, Allah-təala bunu sanki gerçək film şəklində ona nümayiş etdirmişdi:

"(Ya Rəsulum!) Xatırla ki, İbrahim: "Ey Rəbbim, ölüləri nə cür diriltdiyini mənə göstər!" -dedikdə (Allah): "Məgər (ölüləri diriltməyimə) inanmırsan?" -buyurmuşdu. (İbrahim:) "Bəli, inanıram, lakin ürəyim xatircəm (arxayın) olmaq üçün (soruşdum)", -deyə cavab vermişdi. (Bu zaman Allah ona) buyurmuşdu: "Dörd cür (cins) quş götürüb (səhv salmamaq üçün) onlara diqqətlə bax, (onları parçalayaraq bir-birinə qatandan) sonra hər dağın başına onlardan bir parça at, sonra onları çağır, tez yanına gələcəklər. Bil ki, Allah yenilməz qüvvət sahibi, hikmət sahibidir!"[1]

Burada Həzrət Məhəmməd peyğəmbərin (s) ağacı silkələyərək, yarpaqlarını tökməsi və səhabələrinə "namaz da beləcə günahları tökür" -deyə nümayiş etdirməsini misal vurmaq olar.[2] Həmçinin, Allahın rəsulunun (s) səhabələrinə ağacsız bir düz səhrada çor-çöp toplamağı göstəriş verməsi, böyük bir miqdar çörçöp toplandıqdan sonra, "baxın kiçik günahlar da beləcə yığılaraq çoxalır" -deyə göstərməsini də qeyd etmək mümkündür.[3]

Rəvayətə görə, Həzrət Peyğəmbərin (s) bir savadsız qoca qadının cəhrə ilə yundan sap hazırladığını gördü. Ona yaxınlaşıb soruşdu: Sən Allahın varlığını necə dərk edərsən? Qoca qadın əlini cəhrədən çəkdi, bu zaman cəhrə dayandı. Ardınca Peyğəmbərə (s) dedi: Ey Allahın elçisi, bu kiçik bir cəhrədir. mənim vasitəmlə hərəkət edir. Mən əlimi onun dəstəyindən çəkən kimi dayandı. Bu kiçik cəhrəni mən hərəkət etdirirəm. Bəs necə ola bilər ki, belə böyük əzəmətə malik kainat öz-özünə hərəkət etsin? Mən yəqin bilirəm ki, onu yaradan vardır. Həmin yaradan Allahdır.

Peyğəmbər (s) bu zaman səhabələrinə buyurdu: Bu qoca qarıdan dini (anlayışı) öyrənin.

Gördüyünüz kimi hünər dolu gözəl bir nümayiş, qoca və savadsız qarının vasitəsilə belə, nə qədər düşündürücü və dolğundur.

Ümumiyyətlə, incəsənət istər teatr olsun istər kino, istər şeir olsun istər musiqi, istər rəssamlıq olsun istər memarlıq, bütün bu sadalananlar bir millətin mədəni inkişafı üçün qaçılmaz faktordur. Lakin digər sahələrdə olduğu kimi, incəsənətin də təməl prinsipində ilahi və əxlaqi dəyərlər hökm sürməlidir.

---

[1] - Bəqərə\260

[2] - Camei-əhadisiş-şiə, c. 4, səh 17-18

[3] - Dastani-rastan, c. 1, səh. 204

*Dr. Hacı Tofiq Əsədov*

# LUI MASINYON
## MÜSƏLMANLARIN DOSTU

***İyirminci əsrdə Avropanın ən görkəmli islamşünaslarından olmuş Lui Masinyon (1883-1962) müxtəlif illərdə Parisin Böyük Lui liseyində, de Frans kollecində və Sorbon universitetində təhsil almışdır. O, təhsil və hərbi xidmət illərində dəfələrlə müsəlman və ərəb ölkələrində olmuş, Misirin əl-Əzhər universitetində keçirilən dərslərdə iştirak etmişdir.***



**İslamşünas alim**

Masinyon 1907-ci ildə İraqın Üxəyzir qalasının xarabalıqlarında aparılan arxeoloji qazıntılarda iştirak etmək üçün oraya ezam olunur, bu səfərində İslam peyğəmbərinin yaxın səhabələrindən olan Salman Farsinin qəbrini və Pak Salman qəsəbəsini ziyarət edir. (1) Bəlkə də məhz bu ziyarət sonralar onu sözügedən səhabənin həyatı və fikirləri haqda "Pak Salman" kitabını yazmağa sövq edir.

Masinyon 1914-cü ilin əvvəllərində ailə həyatı qurmuş, bir qədər sonra Birinci dünya müharibəsi başlayanda isə hərbi xidmətə çağırılmışdır. O, Fransa ordusunun zabiti kimi çoxlu döyüşlərdə, o cümlədən müsəlmanlar əleyhinə aparılan Beytülmüqəddəs və Dardanel vuruşmalarında iştirak etmişdir. (2) Hərbi xidmətdən sonra isə tədqiqatlarını davam etdirib, 1922-ci ildə məşhur sufi Mənsur Həllac haqda "Həllacın əzabları" adlı doktorluq dissertasiyasını müdafiə etmişdir. (3)

De Frans kollecində İslam sosiologi-yası və Sorbon universitetində islam-şünaslıq fənlərini tədris edən Professor Masinyon həm də müxtəlif vaxtlarda Ərəb Dili Akademiyasının, Almaniya Şərqşünaslar Birliyinin, SSRİ, İsveç, Danimarka, İspaniya, Hollandiya, Belçika, İran və Əfqanıstan Elmlər Akademiyasının üzvü, İslam dünyası jurnalının baş redaktoru, Siyasi Məhbuslara Amnistiya Komitəsinin, Qandini Sevənlər Birliyinin sədri olmuş və digər elmi və ictimai vəzifələrdə çalışmışdır. O, 1930-cu ildə şərqşünaslığa dair Bakıda keçirilən konfransda, 1954-cü ildə Tehranda İbn Sinanın minilliyində və dünyanın müxtəlif ölkələrində keçirilən digər beynəlxalq tədbirlərdə iştirak etmişdir. Onun Misir universitetində fəlsəfi terminlərin tarixçəsindən dediyi dərslərdə məşhur ərəb alimi Taha Hüseyn də iştirak edirdi. (4)

Henri Korbin Masinyonun ən böyük tələbəsi və elmi davamçısı sayılırdı. Masinyon elmi vəsiyyətnaməsini də ona etmiş, özünün Mənsur Həllac və Fatimeyi-Zəhra barədə araşdırmalarını təkmilləşdirməsini istəmişdi. Korbin sonuncu vəsiyyətə əməl etməsə də, onun digər şagirdi olan Əli Şəriəti Fatimə haqda kitab yazmış və Masinyonun istəyini müəyyən həddə həyata keçirmişdir. O, Masinyonun uyğun araşdırmalarını bu kitabın yazılma səbəblərindən biri kimi göstərirdi. Müəllimini böyük insan və böyük islamşünas adlandıran, onun Həllac və Salman haqda iki kitabını fars dilinə çevirən Şəriəti yazırdı: "Masinyon əxlaq və insanlıqda misilsiz idi, çöhrəsində müsəlmanların əsl alimdən gözlədikləri müqəddəslik sezilirdi. Dünya şöhrətli insan olmasına baxmayaraq, onun hədsiz təvazökarlığı ən kiçik tələbələrini də utandırırdı". (5) O, dini icma olan Rişelyu mərkəzinin tövsiyəsi ilə həftədə üç dəfə Vyetnamdan olan kor və yoxsul bir tələbənin evinə gedib dərslərini onun üçün oxuyurdu. (6)

Ərəb dünyasının görkəmli alim-lərindən olan Əbdürrəhman Bədəvi və Ömər Fərrux da Masinyonun tələbələri olmuşlar.

**İslam dininə rəğbət**

Masinyon 25 yaşına qədər dinə maraq göstərməmişdir. Həyatının bu çağı haqda geniş məlumat olmasa da, onun özü sonralar bu dövrü Cəhənnəm dövrü adlandırırdı. O, 1908-ci ilin 2 mayında Dəclə çayı üzərində bir gəmidə intihara cəhd edir. Bağdadda əvvəllər də ona dəstək vermiş Alusilər ailəsi onu müalicə etdirirlər. Mayın 8-də sağalan Masinyon sanki yenidən dünyaya gəldiyini düşünür. Bu uğursuz intihar onun həyat tərzini tamamilə dəyişdirir, sağalandan sonra tövbə edir, məsihi olsa da, İslamı səmavi din və Məhəmməd peyğəmbəri (s) Allahın elçisi kimi qəbul edir. Bəlkə də Alusilərin bu yardımına görə o, həyatını müsəlmanlara borclu sayırdı. (7)

İslam araşdırmaçılarının dindar bir katolik olmuş Masinyona dair fikri birmənalı deyil. Doktor Məhəmməd Dusuqi onu İslam və müsəlmanların düşməni olan ən təhlükəli fransız şərqşünaslardan hesab

edir. (8) Bəzi yazıçılar onu müstəmləkəyə xidmət edən və Fransanın Şimali Afrikadakı antiislam qüvvələrinin məsləhətçisi olan təəssübkeş şərqşünas adlandırırlar. (9) Onun silahlı qüvvələrlə əməkdaşlığı və müsəlmanlara qarşı vuruşmalarda Fransa zabiti kimi iştirak etməsi belə fikirlərə əsas verir. Lakin unutmaq lazım deyil ki, bu əməkdaşlıq ozamankı şərqşünasların vəzifələrindən sayılırdı, müsəlmanların dilini, tarixini, coğrafiyasını və mədəniyyətini bilən bir gənc kimi Masinyon da buna məcbur idi. O, sona qədər katolik kilsəsinin sadiq ardıcılı olsa da, İslam dininə və Peyğəmbər ailəsinə böyük hörmət bəsləmişdir. Masinyon təəssübkeş xristian olsaydı, məsihilikdən İslama keçmiş Salman Farsiyə nifrət etməli idi, halbuki biz tam əksini müşahidə edirik.

Masinyona görə, İslam özündən öncəki bütün peyğəmbərlərin ənənələrinə hörmət edən universal bir dindir. (10) Onun Qurana hörməti də bəzi əsərlərində görünür. O, Fransanın tanınmış islamşünaslarından olan Henri Masseyə yazdığı bir məktubunda Quranın bu ayəsini də qeyd etmişdi: “Məni Allahdan (Allahın əzabından) heç kəs qurtara bilməz”. (11)

### Müsəlmanların dostu

Masinyon müxtəlif din və məzhəblər arasında birlik yaratmaq, münaqişələrə son qoymaq istəyirdi. O, İslam və məsihiliyin dostluğuna ümid bəsləyir, daim buna çalışırdı. Onun Əshabi-Kəhf, Salman Farsi, Mənsur Həllac, Fatimeyi-Zəhra və onun müqəddəs Məryəmlə oxşarlığı, İslam peyğəmbərinin məsihilərlə mübahiləsi və digər belə mövzularda araşdırmaları məhz bu istiqamətdə idi. O bu iki dinin eyni yerdən mənşə götürdüyünə inanır, aralarında dostluq yaratmaq üçün mənəvi və irfani yönümlərinə diqqəti vacib sayır, müsəlman və məsihilərin müştərək oruclar tutmasını, Əshabi-Kəhf kimi hər iki dində müqəddəs sayılan yerləri ziyarət etməsini təklif edirdi. (12) Elmi vəsiyyətində Fatimeyi-Zəhra barədə araşdırmalarının təkmil edilməsini istəyən Masinyon bunun şiə və sünnilər, eləcə də müsəlman və məsihilər arasında birlik yaradacağını söyləyirdi. (13)

Doktor Şəriəti yazır ki, Masinyon ahıl çağında hər bazar günü meyvə və şirniyyat dolu səbətlərlə Parisin yaxınlığında yerləşən Fresnes həbsxanasına gedir, Əlcəzairdən olan qərib müsəlman əsirlərlə görüşür və onları Fransa istismarına qarşı mübarizəyə həvəsləndirirdi. O, zəif müsəlman xalqların taleyinə görə həmişə nigaran idi, erkən İslam çağındakı qəhrəmanların xəncəri kimi qüdrətli qələmi ilə İslamın və Şərqin heysiyyətini Qərbin qərəzli siyasətçi və keşişlərinin ittihamlarından qoruyurdu. (14)

Müasir rus islamşünası Juravski də təsdiqləyir ki, Masinyon həmişə müsəlmanlarla avropalılar arasında sülh yaratmağa çalışırdı, dini mənsublğu onu nəinki bu işdən çəkindirmir, hətta siyasi fəaliyyətə də cəlb edirdi. O, Tunis və Əlcəzairdəki siyasi həbslərə etirazını bildirir və istiqlaliyyət dustaqlarının azadlığını tələb edirdi. Masinyon Əlcəzairdə aparılan döyüşlərə etiraz etdiyinə görə qoca vaxtında bir neçə gün həbsdə saxlandı. O, müasir Qərb sivilizasiyası ilə klassik İslam cəmiyyətləri arasındakı münaqişələrdə müsəlmanların öz kimliklərini əldən verməmələri üçün həyəcan təbli çalırdı. Dövrünün çoxlu şərqşünas və mütəfəkkirlərindən fərqli olaraq, düşünürdü ki, müsəlmanların gələcəyi İbrahim prinsiplərinə qayıtmalarından, əsl mədəniyyətlərini və mənəvi örnəklərini bərpa etmələrindən asılıdır. Bu mədəniyyət və örnəklərin dağılmasından dolayı məsuliyyət daşıyan avropalılar onların bərpasına yardım etməyə borcludurlar. (15)

### Masinyon və sionizm

Masinyona dair mübahisəli məsələlərdən biri də Fələstinin işğalından öncə onun sionizmə təmayülüdür. Bu təmayülü onun 1921-ci ildə Parisdə oxuduğu “Sionizm və İslam” adlı mühazirəsində də görmək olar. (16) Bəzi tədqiqatçılar şübhə etmirlər ki, o, 1917-ci ildən – Yerusəlimdə sionizmin lideri və İsrailin ilk prezidenti Veyzmanla (1874-1952) görüşdüyü zamandan sionist olmuş, həmin təşkilatın rəhbərlərindən başqa birisi və məxfi NİLİ təşkilatının təsisçisi olan Aaron Aaronsonla (1876-1919) tanışlıqdan sonra bu təmayül daha da güclənmişdir. (17) Lakin nəzərdən qaçırmaq olmaz ki, bu əlaqələr Fələstinin işğalından öncəyə aiddir. O zaman nə İsrail adlı dövlət qurulmuşdu, nə də onların müsəlmanlara qarşı cinayət və qətliamları baş vermişdi. Güclü təbliğatları ilə özlərini bütün dünyaya məzlum kimi tanıtmış sionistlərə o zaman çoxlarının yazığı gəlirdi. Masinyon kimi humanist bir insanın da belə bir şəraitdə yəhudilərin Fələstinə qayıtmasından, müsəlman və yəhudi dövlətlərinin yaradılmasından danışması, onların dinc birgəyaşayışına ümidvar olması qeyri-adi bir şey deyil. Cəsarətlə demək olar ki, o, sonralar – bölgədə qanlı olaylara start veriləndən sonra antisionist olmuş və məzlum fələstinlilərin müdafiəsinə qalxmışdır. Üstəlik, sionistlərlə münasibətdə olduğu zaman da bu onun elmi araşdırmalarına təsir göstərməmiş və İslam dininə hörmətini azaltmamışdır.

Masinyon Fələstində cinayətlərin başlandığı 1948-ci ildən sionizm əleyhinə mövqeyini və müsəlman qaçqınlara dəstəyini elan etdi. (18) O, həmçinin Qərb dövlətlərinin müsəlman ölkələrinə qarşı müstəmləkə siyasətlərinə etirazını bildirirdi, xüsusən də təqaüdə çıxdığı 1954-cü ildən vəfat etdiyi 1962-ci ilə qədər Əlcəzair və Fələstində zorakılığın qurbanlarını daha aktiv müdafiə edirdi. (19) Öz ölkəsinin və ərəb dünyasının siyasi və dini rəhbərləri ilə məktublaşan Masinyon Orta Şərq xalqlarının müstəqilliyi, eləcə də Vyetnam münaqişəsinin həlli üçün əlverişli yollar axtarırdı. O, Madaqaskarda həyata keçirilən kütləvi siyasi həbslərə ciddi etiraz səsini ucaltmış və 1948-ci ildə Qərb ölkələrinin Fələstin böhranı ilə bağlı mövqeyini pisləmişdi. (20)

Səmərəli ömründə təxminən 650 dəyərli elmi əsər yaradan bu dahi insan və görkəmli islamşünas 1962-ci ilin 31 oktyabrında dünyasını dəyişdi. Vəsiyyət etmişdi ki, ölüm xəbərini 3 gün gizli saxlasınlar, cənazəsi müşayiət olunmasın və yaxın qohumlarından başqa dəfnində heç kəs iştirak etməsin. (21)

***Vüsal Hüseynzadə***

# QUŞ KİMİ YAZI

***Nə qədər pasiyentim var ki, psixoloji problemlərinin qaynağı əsassız və ifrat qadağalardı: ağır ol, gülmək olmaz, mahnı oxumaq olmaz, sevinmək olmaz, əylənmək olmaz və s.***



Qış nəhayət ki, inadından əl çəkib yerini bahara verməyə hazırlaşır deyə günəş Yaroslavlın səmasında daha çox görünməyə başlayıb və bunun nəticəsi olaraq gün xeyli uzanıb. Artıq o dar dalanları xatırladan cəmi 4-5 saatlıq soyuq qış gündüzlərindən əsər-əlamət yoxdu. Gündüzlə yanaşı sanki köksümüz də genişlənib, eynimiz də açılıb. Yox, sutka həmən 24 saatdır, bircə dəqiqə belə artmayıb, lakin yenə də sənə elə gəlir ki, dünyanın eni-uzunu çoxalıb, nəfəs almaq daha rahatlaşıb. Quşlar da bu genişlənməni duyublar, nədi, hara baxırsan quşdur Yaroslavlın bugünkü ap-aydın səması.

Azadlıq böyük nemətdir, əlbəttə! Və nədənsə səmadakı ədabaz buludlardan birini seyr edə-edə Yusifin Ayşənə dediyi o məşhur cümləni xatırlayıram:

Azadlığım – ürəyim hər istədiyində sənə gələ bilməkmiş, indi anladım.

"Mən" obrazının yaradılması E. Fromm, A. Maslou, Karl Rocers kimi Amerika psixoloqlarının ən diqqətəlayiq elmi nəzəriyyələrindən biridir; onların fikrincə bir neçə "mən" obrazı mövcuddur:

**1) Real "Mən",**

**2) İdeal "Mən"**

**3) Digərlərin gözündə olan "Mən".**

Psixoloqlar deyir ki, bu 3 "Mən" obrazı üst-üstə düşməlidir və ancaq bu halda insanın normal inkişafından danışmaq olar. İdeal "Mən" real "Mən"dən, başqalarınn gözündə olan "Mən" real "mən"dən fərqlənirsə, insan bir saxtakarlıq hiss edir, özünə hörmət edə bilmir və bu onun normal inkişafına mane olur. Bizdə yaranan gərginlik, təlaş, özünə inamsızlığın da səbəbi, çox vaxt məhz bu üç "Mən"in arasındakı uyğunsuzluqdur. Çətin məsələdi axı: xəyal etdiyin şəxsiyyətinlə real şəxsiyyətinin, eləcə də millətin gözündə olan şəxsiyyətinlə həqiqətdə olan şəxsiyyətinin üst-üstə düşüb eyni (ən azından bənzər) olması. Çətindir, fəqət həqiqi hüzur və xoşbəxtlik, həqiqi azadlıq da elə bundadır.

Hamının hörmət etdiyi tanınmış bir ziyalıyla dərdləşirik, deyirəm:

- Sizin yerinizdə olmaq istəməzdim.

- Vallah, heç özüm də - deyib yorğun-yorğun gülür. Bu əziz insan niyə yorulub, bilirsiniz? İctimai qınağa tuş gələcəyindən ehtiyatlanıb "real mən"indən uzaqlaşdığı, başqalaşdığı, başqası olduğu üçün. Adam neçə il masqa taxmaq məcburiyyətində qalar axı?! Zulumdu, zulum! Mən deyərdim ən əzabkeş insan məhz özü kimi olmaq istəyib (hansısa məcburiyyətlərə görə) ola bilməyən insandır. Şərq dünyasını gözünüzün önünə gətirin. İctimai xadimlər, maarifçilər, ziyalılar... necə də yorğundular, aman Allah! Çünki onların ictimai xidmət, maarifçiliklə yanaşı həm də heç bir kitabda yazılmamış belə bir daha vacib "vəzifələri" var:

"İstədiyin kimi sərbəst davrana bilməmək!"

Bu yazılmamış qanunu biz – sən, mən, o yaratmışıq. Niyə axı, ay qardaşım, niyə yükləyirik insanları, niyə daraldırıq (qaraldırıq) onların mavi səmasını? Niyə qoymuruq rahat nəfəs alsınlar? Həm də üzümü ictimai xadimlərə tutub soruşuram: niyə düşürsünüz axı qəlibə? Niyə (gizlində) bir cür düşünür, (aşkarda) başqa cür davranırsınız? Niyə çərçivələri sizə özünüz deyil, başqaları təyin edir? Niyə qorxursunuz? Niyə yenilirsiniz? Niyə mübarizə etmirsiniz?

Məncə elə bu da "azadlıq uğrunda" mübarizədir!

Sakitləşirəm. Sosial şəbəkələrdə olan maraqlı hadisələr təsbeh dənələri kimi düzülür gözümün önünə. Təsəvvür edin, paylaşımımın altında ciddi-ciddi "Müəllim, kölgənizdən üzr istəyərək, sizin yazınıza bir münasibət sərgiləmək şərəfinə nail olmaq istəyirəm" yazıb inboksda "ə, yaman yazmısan aa, qaşqannan öpürəm" yazan ictimai xadimlər gördük. Bu nədi? Niyə belədi? Bəlkə elə belə də olmalıdır? Doğrumudur, yanlışmıdır? Bimirəm. Bildiyim bir şey var ki, artıq yükdür, yorucudur, incidicidir.

Nə qədər pasiyentim var ki, psixoloji problemlərinin qaynağı əsassız və ifrat qadağalardı: ağır ol, gülmək olmaz, mahnı oxumaq olmaz, sevinmək olmaz, əylənmək olmaz və s. Baxırsan ki, batman-batman enerji yığışıb qalıb adamın sısqa canında, çıxarmağa yer yoxdu. Əzizi-mənlər, bax bu uçuşlarını izlədiyim azad quşların ciggiltilərindəki sevincə

and olsun, qadağaları minimuma endirmək lazımdı, yalnız fundamental və arqumental olan vacib məsələlərə qadağa qoyun, xüsusən, əgər qarşınızdakı uşaqlardırsa. Əmin olun, hansısa sevinci qadağan etmək üçün onlara oxuduğunuz "fəlsəfi mühazirələriniz" onların başına batmır, batmırsa, uşaq ta ölənəcən elə o qadağan olunan şeyin görməmişi olur.

Üstəlik, bu tip qadağalar onlarda, (elə böyüklərdə də) Froydun dili ilə desək, sublimasiya olunur, yəni, enerji təbii yolla çıxmırsa, başqa bir yerdən eybəcər formada partlayış edir; enerjini, azadlığı, sevinci zorla içində boğursansa o dəhşətli fəsadlar yaradır.

Sevinməyə, gülməyə, əylənməyə bəhanə və şəraitləri olmayan cəmiyyətlərdə İŞİD yaranır, özü də çox rahatlıqla!

Əraf surəsi, 157-ci ayəyə baxın, Ulu Rəbb əziz peyğəmbərimizin vəzifələrini sadalayarkən birini də belə qeyd edir: "...(elçimiz) onların ağır yükünü yüngülləşdirər və üstlərindəki buxovları açar..." Yəni, peyğəmbər həm də bunun üçün gəlib, gəlib ki, ayağımızdakı zəncirlərdən, çiynimizdəki artıq yüklərdən xilas etsin bizi. Xilas olaq, uçaq, uçaq, uçaq, merac eləyək, xoşbəxt olaq. Axı həzrət Məhəmməd özü də "asanlaşdırın, çətinləşdirməyin" deyirdi. Bəs niyə unuduldu bu mübarək təlimlər? İndi dinə baxsaq, sanki yükdən azad etmə deyil, yükləmə rolunu oynayır; yüngülləşdirməliydi, ağırlaşdırır, asanlaşdırmalıydı, çətinləşdirir... bu tərsəməzzəblik içində insan yazıq başını itirməsin, neyləsin?!

Yazı yekunlaşır, boylanıb səmaya baxıram, quşlar hələ də uçur, uçur, uçur...

Siz heç darıxan quş gördünüzmü?

İlqar Kamil

# İSLAMİ YENİLƏMƏK, YOXSA İSLAMLA YENİLƏNMƏK?

**Heç şübhəsiz ki, hər kəsin qəbul etdiyi bir həqiqət var, XXI əsr texnologiya və elmi tərəqqi əsridir. Bütün sahələrdə texnoloji inkişaf öz əksini göstərir.**

Dünyamızda hər şey müsbət və ya mənfi cəhətdən dəyişir. Hər fərd əxlaqi cəhətdən, hər cəmiyyət də mədəniyyət baxımından bu dəyişiklikdən öz payını götürür. Bəs görəsən İslam mədəniyyətinin və İslam cəmiyyətinin bu dəyişiklikdəki mövqeyi nədir? Əsrlər boyu elm və mədəniyyət beşiyi olan İslam dini və cəmiyyəti bu gün sözügedən tərəqqinin harasında yer alır?

Xüsusilə Qərb dünysının məqsədyönlü siyasətlərindən biri də insanlara İslam dininin terorizm dini olduğunu və geri qalmış bir din anlayışını aşılayaraq İslamdan uzaqlaşdırmaqdır. Əlbəttə ki, səsləndirilən fikirlər dini maarifdən uzaq qalan müsəlmanlar üçün bir az məntiqli gələ bilər. Ancaq İslam Peyğəmbəri həqiqi qurtuluşu İslam dinində görərək "İslam ol qurtul" deyərək bizim üçün bir şüar miras etmişdir. Müsəlman olan şəxs həm dünyada, həm də axirətdə xoşbəxt insanlardan olacaqdır. Əgər İslam dini qurtuluş dini olmasaydı Həzrət Peyğəmbər onun vasitəsilə cahiliyyət dövrünü "əsri səadətə" çevirə bilməzdi.

Bu gün bəzi müsəlmanların dünyadakı sivilizasiyadan geri qalmaları İslamdakı nöqsana görə deyil, əksinə İslamı nöqsan anladıqlarına görədir. Odur ki, hər müsəlman öz dinini ən mükəmməl şəkildə öyrənməli və həyatına tətbiq etməlidir. Din sadəcə namaz qılmaq və oruc tutmaqdan ibarət deyil. Din hər sahədə öz sözünü söyləyib və söyləməyə davam edəcəkdir. İslam mədəniyyətindən xəbəri olan kəs heç bir zaman Qərb mədəniyyətini seçməz, İslamın elmə verdiyi dəyərdən xəbəri olan kəs heç bir zaman Qərbin elmi qarşısında İslamın bisavad olduğuna inanmaz. İslamın insan hüququna verdiyi dəyərdən xəbəri olan kəs heç bir zaman Qərbin insan hüququna qibtə etməz. İslam İbn Sinalar, Birunilər, Tusilər... yetişdirən dindir. Bəs niyə bu gün belə dahilər yetişmir? Çünki əslimizdən uzaqlaşdıq. Dinimizdən bixəbərik. Çünki Meksika, Braziliya və bu kimi ölkələrin əxlaqdan uzaq seriallarıyla böyüyürük. Mədəniyyətimizinn əsasını təşkil edən İslam mədəniyyətini öyrənməli və öyrətməliyik ki, gələcək nəsil əslinə sadiq yetişsin.

Hər kəs, hər şey və hər dövr dəyişir. Gəlin biz də yeni ilə, yeni aya, yeni günə dəyişərək başlayaq. Ancaq bu dəyişiklik bizim əslimizə tərəf bir dəyişiklik olmalıdır. İslam dinini özümüzə uydurmaqdansa, özümüzü dinə uymalıyıq. Günümüzdə səslənən fikirlərdən biri də İslam dininin günümüzə görə yenidən gözdən keçirilməsi və müasir standardlara cavab verəcək şəkildə tənzimlənməsidir. Əlbəttə ki, bu, İslam dinindən xəbəri olmayanların fikridir. Çünki din hər zaman elmdən əvvəl gəlir. Bir çox həqiqət var ki, İslam dinində ifadə olunub, ancaq elm onu əsrlər sonra kəşf edə bilib. Məsələn, yer kürəsinin yuvarlaq olması və günəşin ətrafında fırlanması həqiqəti Quranda öz əksini tapmışkən, bugünün elm beşiyi kimi tanıdığımız Qərbdə bu fikirlərə görə alimlər edam edilirdi.

Bir gün Rəsulullah əleyhissalam Muaz bin Cəbələ belə buyurdu:

"Sənə tamamilə hər işin əslini, təməlini söyləyimmi?

Muaz da, "Söylə, ey Allahın Rəsulu", dedi. Peyğəmbər əleyhissalam: "Hər işin əsli İslamdır"-buyurdu.

Xülasə, hər bir müsəlman yeni günə və yeni ilə İslamla dəyişərək girməlidir ki, gələcək tərəqqilər İslamın olsun. Dəyişikliyimiz İslamla olsun. İslamı öyrənməklə olsun. Əslimizə sadiq qalmaqla, mədəniyyətimizə sahib çıxmaqla olsun. Namaz, oruc və digər ibadətləri məqsədinə uyğun yerinə yetirməklə olsun yenidən doğuşumuz. Heç bir dəyəri olmayan və elmi inkişafa heç bir bəhrə verməyəcək təfərrüat mövzuları mübahisə edərək bir-birimizə düşmənçilik bəsləməklə birlik və tərəqqidən söhbət etmək mümkün deyil. Əgər biz mədəniyyətimizin və dinmizin Qərb mədəniyyətindən daha köklü və güclü olduğunu qəbul ediriksə hamılıqla maariflənməliyik. Öz təməllərimizə sadiq qalmağa çalışmalıyıq. Mən əminəm ki, bu yöndəki dəyişikliyimiz İslam aləmini yenidən elm mərkəzinə çevirəcəkdir. Çünki İslam mədəniyyəti Qərb mədəniyyətinin çata bilməyəcəyi qədər yüksək və köklü mədəniyyətdir. Gəlin əslimizə, tariximizə sahib çıxaq...

Son söz Həzrət Peyğəmbərdən olsun.

Əleyhissalam belə buyurur:

"Rəbb olaraq Allahı, din olaraq İslamı və Peyğəmbər olaraq Məhəmmədi seçib bəyəndim" -deyən kəs cənnətə layiqdir."

**Rüfət Şirinov**

# CORCİ ZEYDAN VƏ İSLAM PEYĞƏMBƏRİNİN (S) SƏMİMİ İMANININ GÖZƏL TƏSVİRİ

Xristian alim Corci Zeydan "İslam sivilizasiyası tarixi" ("Tarixi-təməddüni-İslam") əsərində həzrət Məhəmməd peyğəmbərin (s) səmimiyyəti, öz peyğəmbərliyinə sarsılmaz imanı haqqında, onun təəccüb doğuran müqavimətləri ilə bağlı məlumat verir və bununla digər şərqşünasların iddialarının doğruluq ehtimalını inkar etməyə çalışır. Həmçinin sübut etməyə çalışır ki, o həzrətin (s) dinə çağırışında zərrəcə dünyəvi məqsəd olmayıb. Zeydan yazır:

"Nəhayət (Müaviyənin atası) Əbu Süfyanın da aralarında olduğu bir qrup Əbu Talibin yanına gəlib dedi: "Sənin qardaşın oğlu bizim dinimizi əsassız sayır. Bizim görüşlərimizi dəlilik adlandırır. Özümüzü azğın hesab edir. Ya onu bu işdən çəkindir, ya da ondan əl çək".

Əbu Talib onları xoşluqla yola saldı və istənilən növ həmkarlıq vəd etdi. Amma Qüreyş qövmü Peyğəmbərin (s) hələ də İslama dəvətini, onların Allahlarını təhqir etməkdə davam etdiyin görüb yenidən Əbu Talibin yanına gəldilər və dedilər: "Əgər qardaşın oğlunu bu işdən çəkindirməsən səninlə də, onunla da o qədər döyüşəcəyik ki, iki tərəfdən biri həlak olacaq".

Peyğəmbər (s) bu sözləri əmisindən eşitdikdə əmisinin onun arxasından çəkiləcəyini düşündü. Təbii ki, bu ona ağır gəldi. Amma dönməz əzmlə dedi: "Ey əmi! Əgər Qüreyş qəbiləsi günəşi sağ əlimə, ayı isə sol əlimə qoysa, (yenə) bu işdən əl çəkməyəcəyəm".

Həzrəti (s) ağlamaq tutdu. Əmisinin yanından durub getmək istədi. Amma əmisi onu saxladı və dedi: "Nə istəyirsən, de. And olsun Allaha, səni onlara təslim etməyəcəyəm".

Bu arada Peyğəmbər (s) Qüreyş arasında yavaş-yavaş (səssizcə) İslama dəvət işi aparırdı və böyük şəxsiyyətlər İslam dinini qəbul edirdilər. Onların arasında Əbu Bəkr, Osman, Zübeyr




ibn Əvvam, Əbdürrəhman ibn Övf, (Peyğəmbərin (s) əmisi) Həmzə və Ömər var idi. Əlbəttə, İslam tarixində yüksək məqam qazanmış bu məşhur şəxsiyyətlərin İslamı qəbul etməsi Peyğəmbər (s) üçün böyük inkişaf idi. Xüsusilə, Qüreyş arasında çox güclü və hörmətli olan Ömər və Həmzənin iman gətirməsi böyük önəm daşıyırdı. Peyğəmbər (s) onlara çox hörmət bəsləyirdi.

Peyğəmbərin (s) digər əmiləri və qohumları Əbu Talibdən ümidləri kəsildikdə çıxış yolu tapmaq fikrinə düşdülər. Qərara aldılar ki, Peyğəmbəri (s) xoşluqla dəvətdən çəkindirsinlər. Buna görə də qövmün böyükləri "Dar ən-Nədvə"də (məşvərət evində) toplaşıb Peyğəmbərin (s) dalınca (elçi) göndərdilər. Onu mehribanlıqla, hörmətlə qəbul edib dedilər: "Ey Məhəmməd! Biz səninlə söhbət etməyə gəlmişik. Sən bizimlə elə bir iş görmüsən ki, heç kim öz qövmünə qarşı belə etməyib. Sən bizim ata-babalarımıza pis sözlər demisən. Sən bizim dinimizi təhqir etmisən. Sən bizim tanrılarımıza nalayiq sözlər yağdırmısan. Sən bizi dəli adlandırmısan. Sən bizim birliyimizi pozmusan. Əlqərəz, nə pis iş varsa, etmisən. Əgər bu işi pul üçün görürsənsə, biz öz aramızda pul toplayıb sənə verək ki, bizim ən pullumuz olasan. Əgər vəzifə, məqam istəyirsənsə, biz səni öz padşahımız, öz başçımız edək. Əgər dediklərin ruhi sıxıntıdan irəli gəlirsə, biz yenə pul toplayıb səni ən yaxşı həkimlərin yanında müalicəyə aparaq. Əgər sağalsan, çox yaxşı. Sağalmasan da səni üzrlü hesab edərik".

Peyğəmbər (s) onlara buyurdu: "Mənim heç bir narahatçılığım yoxdur. Pula, vəzifəyə görə dəvət etmirəm. Allah məni peyğəmbərliyə seçmiş, mənə kitab göndərmiş və mənə əmr etmişdir ki, sizə müjdə verim və Allahın əzabı ilə qorxudum. Mən sizə Allahın ismarışını çatdırıram. Sizə nəsihət verirəm. Əgər mənim sözümü qəbul etsəniz, hər iki dünyada xoşbəxt olacaqsınız. Əgər qəbul etməsəniz, səbir edəcəyəm ki, Allah mənim və sizin aranızda mühakimə etsin".

Qüreyş bu addımların fayda vermədiyini görüb müsəlmanları incitməyə başladı. Müsəlmanlar dözümlə əziyyətlərə qatlaşdılar. Vəziyyət çətinləşdikdə, müsəlmanlar həddindən artıq əzaba, təhqirə məruz qaldıqda Peyğəmbər (s) əmr etdi: "Sığınacaq qohumu, qəbiləsi olmayan müsəlmanlar Məkkədən Həbəşəyə getsinlər". Buna görə də qadınlı, uşaqlı səksən üç nəfər



Həbəşəyə getdi. Bu hicrət İslamın ilk hicrəti hesab olunur. Bu səfər o dönəmdə çox çətin idi. Çünki mühacirlər quru səhralardan, dəryalardan keçməli idilər. Qadınlarla, uşaqlarla birgə bu çətinliklərə qatlaşmalı idilər. Onların bu addımı özü Peyğəmbərin (s) ardıcıllarının öz rəhbərlərinə tam iman bəslədiklərinə sübutdur. Belə ki, onun göstərişi ilə səfər çətinliyinə qatlaşırdılar.

İndi isə çoxlu araşdırmalardan sonra İslama dəvət haqqında gəldiyimiz qənaəti oxucularımızla bölüşməyi məqsədəuyğun görürük.

Bir sıra qeyri-müsəlman müəlliflər güman etmişlər ki, Peyğəmbər (s) bu mühüm işə yüksək vəzifə tutmaq, dünya maraqlarını təmin etmək üçün əl atmışdır. Lakin bizim qənaətimizə görə, onların bu fikri yanlış və əsassızdır. Çünki İslama çağırış tarixi göstərir ki, Peyğəmbər (s) tam səmimiyyətlə, imanla və heç bir dünyəvi maraq güdmədən çağırışa başladı. İslam peyğəmbərinin peyğəmbərliyinə, nübüvvətinə tam, qəti imanı var idi. Tam əmin idi ki, Allah tərəfindən insanları (doğru yola, İslama) dəvət etmək üçün göndərilmişdir. Əgər bu qəti və mükəmməl iman olmasaydı, o qədər əzab-əziyyətə dözə bilməzdi. Bundan başqa, o, İslama çağırışdan öncə Xədicə ilə ailə qurduğu üçün (ictimai) məqama, var-dövlətə yiyələnmişdi. Xalq onu sevir, hörmət bəsləyirdi. Asayiş dolu həyat sürürdü. Amma əksinə, çağırışdan, dəvətdən sonra çoxlu əzab-əziyyətə məruz qaldı. Belə ki, Məkkə camaatı ona görə Bəni-Haşimlə savaş halına gəldi. Peyğəmbər (s) Bəni-Haşimdən olduğu üçün Məkkə əhalisi öz aralarında peyman bağlayıb Kəbəyə qoydular. Bu peymanda qərara aldılar ki, Bəni-Haşimlə (Peyğəmbərin (s) yaxın qohumları ilə) alış-veriş etməsinlər. Onlardan qız almasınlar. Onlara qız verməsinlər. Bəni-Haşim bu peyman nəticəsində üç il ərzində Məkkə şəhərini tərk edib dağlara, mağaralara sığındı. Məkkəyə gəldikdə gizli gəlirdilər. Məkkədə yalnız Peyğəmbərlə (s) düşmənçilik edən əmisi Əbu Ləhəb kimilər aşkar get-gəl edə bilirdilər.

Bəlkə bəziləri güman edirlər ki, İslam peyğəmbərinin (s) öz çağırışında müqaviməti, dayanıqlılığı əmisi Əbu Talibin himayəsinə görə olmuşdur. Amma bu da yanlışdır. Çünki Peyğəmbər (s) Əbu Talibin vəfatından sonra öz mövqeyində əvvəlkindən daha çox möhkəm dayandı. Əbu Talib və Xədicə hicrətdən üç il öncə dünyalarını dəyişdilər. Onların vəfatından sonra Peyğəmbərin (s) işi çətinləşdi. Qüreyş qəbiləsi hər tərəfdən ona hücum etdi. Xüsusilə, Əbu Ləhəb, Peyğəmbərin (s) qonşuları Həkəm ibn As və Ətəbə ibn Əbu Muit onu başqalarından daha çox incitdilər. Əksər hallarda namaz qılarkən Peyğəmbərin (s) başına heyvan içalatı boşaldır, yeməyini bulaşdırırdılar.

Peyğəmbər (s) bəlkə orada ətrafına kömək toplayar deyə Taifə getdi. Amma orada da söyüş və əziyyətdən başqa bir şey görmədi. Belə ki, Taif camaatı bir dəstə nadanı, rəzili onun üstünə göndərdilər ki, onunla savaşsınlar, üstünə çığırsınlar. Peyğəmbər (s) onlardan uzaqlaşıb bir küncə qısıldıqda bir dəstə gəlib bu rəzilləri qovurdu.

Peyğəmbər (s) bütün bu əziyyətlərə qatlaşdı, dözdü və çağırışını davam etdirdi. O, camaatın nadanlığından yalnız Allaha gileylənirdi. Peyğəmbər (s) yenidən Taifdən Məkkəyə qayıtdı. Öz düşmənlərinin qabaqkından daha pis olduğunu gördü. Belə ki, uzaqdan, yaxından hamı ona qarşı döyüşə qalxmışdı, onu hədələyirdi. Peyğəmbər (s) öz sarsılmaz və möhkəm iradəsi ilə bu müsibətlərə dözürdü. Bir halda ki, çağırışdan əl çəkdiyi təqdirdə ona qarşı istənilən şəkildə mehribanlıq, hörmət göstəriləcəyini yəqin bilirdi. Amma o, dəvətindən əl çəkmirdi. Öz peyğəmbərliyinə tam imanı var idi və bu dəvətin ona Allah tərəfindən əmr olunduğunu bilirdi.

Öz yaxınlarının, qövmünün İslamı qəbul edəcəyindən naümid olan Peyğəmbər (s) həcc mövsümündə zəvvarların qarşısına çıxıb onları İslama dəvət edirdi və orada da hücumlara




məruz qalırdı. Xüsusilə, əmisi Əbu Ləhəb onun sözünü kəsib deyirdi: "Ey zəvvarlar! Mənim qardaşım oğlunun sözlərinə qulaq asmayın. O, deyir ki, "Lat" və "Üzza"dan (iki bütün adı) əl çəkin və onun yeni azğınlıqlarını qəbul edin. Saqın, Məhəmmədə qulaq verməyin".

Əlbət ki, bu etirazlar Peyğəmbərin (s) iradəsini, qərarını sarsıtmırdı. Davamlı olaraq zəvvarları, hacıları İslam dininə səsləyir, dəvət edirdi (Corci Zeydan, "İslam sivilizasiyası tarixi" ("Tarixi-təməddüni-İslam"), tərcümə edəni: Əli Cəvahir Kəlamı, səh. 22-24).

Tərcümə edən: ***Maqsud Sayıl***

# AİLƏ MƏHƏBBƏTİ
## (İSLAM NÖQTEYİ-NƏZƏRİNDƏN)

**Ailə sosiologiya baxımından evlənmək ya da qohumluq xətti ilə gələn bir həyat birliyidir. Ailə sözü Qərbdə əsasən ana-ata və uşaqlar anlayışını verir. Şərq xalqlarında ailə daha çox eyni evdə yaşayan, ya da eyni nəsildən gələn insanların cəminə deyilir.**

**Biologiyada ailə sözü bir birlərinə qohumluq dərəcəsi baxımından bir qrupda birləşən heyvanat ya da nəbatat üçün işlədilir.**

**Ailə sözünün əsli ərəbcədən gələn (ailə) sözündəndir. Bu söz ərəbcədə dayanmaq mənasında olan (avl) kökündəndir. Bir-birlərinə dayanan, etimad edən insanlar üçün işlədilir.**



Ailə İslam dini baxımından müqəddəs toplumdur. Ailədə məhəbbət, isti mühit yaratmaq dinin təkid etdiyi məqamlardandır. Lakin bizim mövzumuz ailədə kişi-qadın arasında olan məhəbbətlə xülasələşir.

Həzrət Peyğəmbəri-Əkrəm (s) qadına məhəbbəti peyğəmbərlərin xüsusiyyətlərindən sayaraq buyurmuşdur: "Allah-taala bizim vücudumuzda yeddi xüsusiyyət qərar vermişdir". Onlardan biri də qadınlara məhəbbətdir.

Belə olduğu təqdirdə qadına məhəbbət bəsləmək xüsusiyyəti hər bir kişidə olması zəruridir. Çünki Allah-Taala qadını kişidən incə və kövrək yaratmışdır. Onu yalnız məhəbbət və sevgi bəsləməklə qorumaq, yaşatmaq mümkündür.

Əgər həyat yoldaşınız (xanımınız) sizdən razıdırsa, bilin ki, ən yaxşı müsəlmanlardan birisiniz.

Arqument kimi əziz İslam Peyğəmbərinin (s) iki hədisini göstərmək olar:

Rəsuli Əkrəm (s) dəfələrlə buyurub: "Sizlərin daha yaxşınız, öz qadınları üçün yaxşı olanlarınızdır və mən öz qadınlarım barəsində sizlərdən daha yaxşıyam".

"Hər kəsin öz həyat yoldaşına qarşı məhəbbəti artıq olarsa Allah-Taalaya imanı daha çoxdur".

Arvad-uşağa qarşı olan xoşrəftarlıq və məhəbbət nə qədər artıq olarsa, müsəlmanlıq və iman da bir o qədər çoxalar.

Təbii ki, ailədə mehr-məhəbbət qarşılıqlı olmalıdır. Qadınlar öz həyat yoldaşlarına mehr-məhəbbət bəsləməklə ailə başçısına dəyər vermiş ailəni möhkəm bir qalaya çevirmiş olur. Əks təqdirdə ailə başçısına yəni kişiyə qarşı sevgi bəslənməzsə nəticədə ailə təməli süstləşəcək bir çox hallarda isə onun dağılmasına gətirib çıxaracaqdır.

Evdarlıq, ailə qayğıları, eləcə də uşaqların təlim-tərbiyəsində məhəbbət və mehribanlığın rolu böyükdür.

Habelə ailə işlərinin idarə olunması bərabərliyə riayət edərək ictimai ağıla sahib olmaq, mehr-məhəbbət, mehribanlıq, elm və siyasət tələb edir. Fikir və düşüncə tələb edən qayğılar kişinin, məhəbbət və mehribanlıq rəftarı isə qadınların öhdəsinədir.

Hətta Əhli-beyt (ə) yanında dəyər qazanmaq da ailədə məhəbbətdən aslıdır. Başqa bir hədisdə deyilib: "Biz Əhli-beytə öz həyat yoldaşına daha çox mehriban olan şəxslər əziz və mehribandır".

Kişi və qadın arasında sevgi fitrətdən qaynaqlanır. İlahi fitrət baxımından Allah ər-arvad arasında əvvəldən məhəbbət yaratmışdır. Lakin çox vaxt insanlar öz səhvləri ilə bu məhəbbətə zərbə endirirlər. Quran bu haqda buyurur:

"Allahın nişanələrindən biri budur ki, sizin üçün özünüzdən həyat yoldaşı yaratdı ki, onunla birlikdə rahatlıq tapasınız və sizin aranızda mehr-məhəbbət və rəhmət qərar verdi. Bu iş üzərində fikirləşənlər üçün (hikmət və) nişanələr vardır." "Rum", 21

Yaşayışda mənfi fikirlər, bədbinliklər, anlaşılmamazlıqlar, dil yaraları yaranarsa, Allah verən məhəbbət donacaqdır. Çünki kiçik dil yarası, səhvləri üzə vurmaq və s... fitri məhəbbəti aradan aparmaq üçün böyük səbəblərdən biri hesab olunur. Bu cəhətdən İslamda qadınlarına sevgi

və məhəbbət bəsləmək kişilərə sifariş olunmuşdur. Əziz İslam Peyğəmbəri (s) buyurmuşdur: “Kişinin qadın üçün ən gözəl, yaddan çıxmayan sözü «mən səni sevirəm» sözüdür”. “Vəsail əş-Şiə” 14-cü cild

Bu həm də psixoloqlar arasında da həqiqətini tapmışdır.

Qeyd edək ki, tam olaraq iki nəfər arasında əxlaq müvafiqliyi qeyri-mümkündür. Bu mətləb o qədər aydın və məlumdur ki, filosoflardan bəziləri bu haqda hər bir kəs özünəbağlıdır – yəni mahiyyət nəzərindən başqası ilə fərqi vardır - söyləmişlər. Elmi ibarətlə desək, “insan özünə həsr olunmuş bir növdür”. Yəni hər bir insanın vücud və varlığı başqası ilə fərqlidir. Buna görə də qadın və kişinin əxlaq sarıdan tam müvafiq olaraq sırf müsbət bir nəticəyə yetişməsini gözləmək lazım deyil.

İnsan ömrü boyu müxtəlif adət və ənənələrlə üzləşir. Ailə qurmaq fikrinə düşənlər bu mühüm məsələyə diqqət edib fikir verməlidirlər ki, ailə qurmaq məsələsində tam bərabərliyə nail olmaq mümkün deyil. İnsan öz istək və arzularının tam həqiqətə yetəcəyi barədə qətiyyətlə fikirləşməlidir.

Adət fərqi və ruhiyyələrin müxtəlifliyi məlum olduğuna görə evin isti ocağının soyuq və ruhsuz olmaması ilə yanaşı, yaşayışa ürək sıxıntısı və qəmginlik yol tapmasın deyə müxtəlif təqdirəlayiq tədbirlər fikirləşmək lazımdır.

Əvvəldə deyilənlər bunlara tutarlı cavabdır. Yəni qadın, kişi və ailənin digər üzvləri qarşılıqlı əfv, güzəşt, bağışlamaq, fədakarlıq qaydalarını nəzərə almalı və ələlxüsus kişi bu mühüm məsələyə daha artıq əhəmiyyət verməlidir.

### HÜQUQ VƏ MƏHƏBBƏT

Kişi və qadın ər-arvad münasibətindən əlavə, bir-birinə ürək yandıran dosta çevrilməlidirlər. Əgər aralarında rəfaqət olmazsa iş çətinləşər. Ümumiyyətlə, hər hansı bir yerdə, xüsusilə ev mühitində əgər təkcə qanun hökm edərsə lazımlı nəticə hasil olmayacaqdır. Necə ki, təkcə məhəbbətin hakim olması nəticə vermir; qanun, məhəbbət və səfa-səmimiyyət birlikdə olmalıdır.

“Həqiqətən Allah (camaatı) ədalət və ehsana əmr edir.”

Qadın və kişi İslam qanunlarına riayət etməyə vəzifəli olduqları kimi, bir-birinə qarşı ürək yanan və dost sözünün əsil mənasında olmalıdırlar.

Bir gün bir qadın Peyğəmbərin (s) hüzuruna gəlib dedi: İndidən qiyamətə kimi yer üzünə gələcək bütün qadınlar tərəfindən sizə bir sualım vardır: nə üçün siz qadın və kişi arasında fərq qoymusunuz?! Kişilər üçün bir sıra əməl və savablar buyurmuşsunuz ki, qadınlar o savablardan məhrumdurlar. Misal üçün Allah yolunda cihad etmək. Allahın Rəsulu (s) buyurdu:

“Qadının cihadı öz əri üçün yaxşı arvad olmaqdır.”

### MƏHƏBBƏT İFFƏT MƏNŞƏYİDİR

Ürəyində ərinə qarşı eşq və məhəbbət olan qadını heç bir xarici ünsür iffət və paklığından azdıra bilməz. Qadın və uşaqların yoldan çıxması və bir-biri ilə yola getməməsinin əsas mənşəyi bu nöqtədən başlayır ki, kişi öz ailəsinə qarşı lazım olan məhəbbət və mehribanlığı göstərmir.

Hər bir şəxsin fitri yaranışına əsasən, məhəbbət və sevgiyə ehtiyacı olması şəksiz, bu ehtiyacın kişidə qadından bir neçə dəfə çox və güclü olması ilə sübuta yetmişdir. Kişi bu mühüm məsələyə xüsusi diqqət yetirməli, mümkün olan müxtəlif yollarla öz yoldaşına məhəbbət göstərib onun etimadını qazanmalıdır. Belə ki, qadın öz ərini ürəyi yanan, mehriban və fədakar bir insan kimi qiymətləndirməlidir. Bu iş ailə nəzminin sabit qalmasında təsirli rola malikdir. İmam Sadiq (əleyhissalam) buyurur:

“Həyat yoldaşlarına məhəbbət bəsləmək peyğəmbərlərin əxlaqi sifətlərindəndir”.

Kişi evin rəisi, yaxud hökm edən olmasına baxmayaraq bilməlidir ki, rəyasət və böyüklüyündə yalnız o zaman müvəffəqiyyət qazana bilər ki, ailə üzvlərinin qəlbinə nüfuz edərək onların ürəyində özünə qarşı məhəbbət və inam yaratsın.

İmam Sadiq (ə) buyurmuşdur:

Ariflərin vücudunun sirri və batinlərinin həqiqəti üç kök üstündə dayanıb: Qorxu, ümid, məhəbbət.

Qorxu elmin bəhrəsidir, ümid yəqinin bəhrəsidir, məhəbbət dərkin bəhrəsidir.

Allah-taala bu səbəbdən də iki əsası – ər-arvad bağlılığının bünövrəsi kimi xatırlayır. Ər-arvad bir-birlərinə bağlı olmalı, bir-birinin nöqsanını bağışlamalıdırlar. «Sizin aranızda iki bağ qərar verilmişdir – biri məhəbbət, digəri isə güzəştə getmək».

***Xəyal Tofiqoğlu***



# SƏLƏFİ ALİMLƏRİ TƏKFİRƏ QARŞI

**Ey iman gətirənlər! Allah yolunda (cihad üçün) səfərə çıxdığınız zaman diqqətli olun! Sizə müsəlman olduğunu bildirən (bu məqsədlə salam verən) bir kimsəyə: "Sən mömin deyilsən!" deməyin!.. Siz özünüz də bundan əvvəl onlar kimi idiniz.**

*Nisa surəsi, 94. (1)*



Suriyada baş verən cinayətlər bəşəriyyəti sarsıtmaqda davam edir. Və nə qədər acınacaqlı olsa da, bütün bunlar bizim də mənsub olduğumuz din adına edilir; mərhəmət və şəfqət dininin, peyğəmbəri aləmlərə yalnız rəhmət üçün göndərilən (1) və heç kimi qılınc gücünə dəvət etməyən bir dinin.

Peyğəmbərin vəfatından sonra Roma sərhədlərinə qoşun göndərərkən birinci xəlifə Əbu Bəkr belə demişdi: "(Düşməni öldürəndən sonra) bədən üzvlərini kəsməyin. Uşaqları, qocaları və qadınları öldürməyin, xurma ağaclarını qırıb yandırmayın. Meyvə verən heç bir ağacı, yemək məqsədi olmadan heç bir qoyunu, inəyi və dəvəni kəsməyin. Siz hücrələrdə ibadətlə məşğul olan (fərqli təriqətlərə mənsub) insanların yanından keçəcəksiniz: onları rahat buraxın və əməllərinə mane olmayın!" (2)

## İbn Teymiyyə və təkfir məsələsi

Bundan qabaq demişdik ki, İbn Teymiyyənin (1263-1328) əsərlərində təkfirçi motivlər yer alsa da, bu, həmin dövrə görə yeni bir şey deyildi. İbn Teymiyyənin hədəf seçdiyi bəzi ifratçı, qali firqələr (3) o zaman digər alimlərin də oxşar ittihamlarına məruz qalırdı. Bəzən yanlış olaraq elə bilirlər ki, qədim mənbələrdə işlənmiş Rafizi sözü həmişə bütün şiələrə - yəni Peyğəmbər sünnəsini, onun Qurana və şəriətə dair açıqlamalarını əsasən Əhli-beytdən, imamlardan alanlara aiddir. Əslində isə Şiə firqəsi də çoxlu şaxələrə ayrılır, azlıqda və hətta kiçik qruplar şəklində olsa da, ifratçı görüşlərə malik olanlar onda da var və ya olub. Bu baxımdan, həm qədim mətnlərdə, həm də günümüzdə işlənən Rafizi sözündə məqsədin nə olduğunu dəqiqləşdirmək lazımdır.

Misal üçün, İbn Teymiyyə yazır: "Rafizi firqəsinin əsas sözü budur ki, Peyğəmbər Əlinin (canişinliyi) haqda heç bir bəhanəyə yer qalmayacaq səlis bəyanatla çıxış etmişdir. O, məsum imam, ona qarşı çıxan isə kafirdir. Ənsar və mühacirlər bunu gizlədib şəriəti dəyişdirdilər, zalım və hətta 10-dan bir qədər artıq adamı çıxmaqla hamılıqla kafir oldular. Həmçinin deyirlər ki, Əbu Bəkr, Ömər və onlar kimilər əvvəldən münafiq olmuşlar. Bəzilərinə görə isə iman gətirmiş və sonradan kafir olmuşlar. Rafizilərin əksəri özlərini mömin, müxaliflərini isə kafir sayırlar". (4) Əhli-beyt firqəsinin böyük əksəriyyətinin təşkil etdiyi on iki imamçı şiəliklə az-çox tanış olanlar bilirlər ki, bu sözlər həmin firqəyə aid edilə bilməz. Düzdür, onlar Peyğəmbərin sözügedən təyinatını iddia edir və əsaslandırırlar, lakin bu fikri qəbul etməyənləri, yaxud o zaman həyata keçirməyənləri münafiq və kafir adlandırmırlar.

Rafizi sözündə məqsədi araşdırandan sonra bəlli olur ki, İbn Teymiyyə ümumilikdə Şiə firqəsini və onun özəyini təşkil edən on iki imamçı şiəliyi yanlış və bidətçi saysa da, təkfir etməmiş, yalnız azğın etiqadlara malik olan bəzi qrup və şaxələrini kafir bilmişdir. O yazır ki, rafizilər təqiyyəni üsuli-dindən – dinin əsas prinsiplərindən etmişlər. (5) Halbuki firqələr tarixindən məlumatı olanlar bilirlər ki, Şiəlikdə bəlli şərtlər altında təqiyyə olsa da, bu söz onu fəaliyyət və təbliğatlarında birinci şərt sayan İsmailiyyə firqəsinə aiddir. Xatırlatmaq lazımdır ki, İbn Teymiyyə bu firqənin Dəməşq yaxınlığındakı Xosrovan dağında yerləşən Duruzi qoluna qarşı döyüşdə iştirak etmişdi. (6) O zaman əsas səciyyəsi "Hakim bi əmrillah" ləqəbli Fatimi xəlifəsinin tanrılığına inamdan ibarət olan bir qrupun isə nəinki Şiə firqəsinə, ümumiyyətlə İslama dəxli yoxdur.

Başqa bir misala diqqət yetirək: "Rafizilərin fikri budur ki, Əbu Bəkr, Ömər, Osman, Bədr döyüşünün və Rizvan beyətinin iştirakçıları, səhabələr, tabeilər, İslam imamları, dörd sünni məzhəbinin alimləri, müsəlman şeyxlər, abidlər, padşahlar, hərbçilər və adi müsəlmanlar hamılıqla kafir və mürtəddirlər". (7) Təbii ki, 1400 illik İslam və Şiə tarixində belə bir ittihamla çıxış edən bir şiə alimi də tapmaq mümkün deyil. Təəssüf ki, İbn Teymiyyə bu və digər oxşar nümunələrdə konkret olaraq hansı firqə və qrupu nəzərdə tutduğunu açıq söyləməmiş, bu isə kimlərinsə bilmədən, ya da bilərəkdən firqələrarası rəqabəti ədavətə çevirməsinə zəmin yaratmışdır. "İğasə əl-ğəriq və

inarə ət-təriq" kitabında yuxarıdakı cümlələr kontekstdən çıxarılaraq Rafizi adlandırdıqları bütün Şiə firqəsinə aid edilmişdir. Halbuki İbn Teymiyyə bu cümlələri sözügedən döyüşdən sonra Məlik Nasirə yazdığı məktubunda qeyd etmiş və azğın Duruzi firqəsini nəzərdə tutmuşdur.

İbn Teymiyyə özünün müxtəlif əsərlərində Xəvaric, Mötəzilə, Əşairə, Mürciə, Cəhmiyyəyə bağlı və qali (6) olmayan Qədəriyyə, Müşəbbihə, Mücəssimə və Şiə firqələrinin kafir sayılmadığını açıq-aşkar bəyan etmişdir. O yazır: "Bidətin kökləri dörddür: Rafizilik, Xəvaric, Qədəriyyə və Mürciə. Cəhmiyyə isə ümumiyyətlə Məhəmməd ümmətindən sayılmır". (8)

O, günaha yol vermiş müsəlmanları təkfir edən Xəvaric əqidəsini rədd edərək yazır: "İman (Allaha) itaətlə artır və günahla azalır. Bu baxımdan, Əhli-sünnə Xəvaricdən fərqli olaraq, heç bir qiblə əhlini kiçik və ya böyük günahına görə kafir saymır və günahlar iman qardaşlığına xələl gətirmir". (9) O, həmçinin Əhli-sünnənin rafizilərə qarşı mövqeyini qeyd edərkən təkfir məsələsinə toxunmadan deyir: "Onlar səhabələrə nifrət edən və onlara qarşı təhqiramiz ifadələr işlədən (lənətləyən) Rafizi təriqətini sapqın hesab edib ondan uzaqlaşırlar". (10) Göründüyü kimi, burada da təkfirdən söhbət getmir. Üstəlik, bu gün ən böyük şiə alimləri səhabələrə hörmətsizliyi haram sayırlar və aşağı qatlarda əksəriyyət bu hökmə əməl edir.

Ümumuiyyətlə, İbn Teymiyyə təkfir məsələsində ehtiyatlılığın tərəfdarıdır. O, etdiyi günaha görə hər hansı müsəlmanı kafir saymağın yasaq olduğunu bildirdikdən sonra əlavə edir: "Xəvaric (qruplaşması) qan tökməyincə və müsəlmanların malını qarət etməyincə Əli onlarla vuruşmadı, vuruşanda da onları kafir adlandırmadı. Bəs Allahın və Peyğəmbərin vuruşmağa çağırdığı, sapqınlığı hədislərdə qeyd və bütün müsəlmanlar tərəfindən qəbul olunan bir qrup təkfir edilmirsə, alimlərin də səhvə düşdüyü şübhəli məsələlərdə fərqli fikirlərə malik insanlar təkfir edilə bilərmi?! Halbuki bu zaman təkfirçinin özü daha böyük bidət etmiş olur. Odur ki, müsəlmanların qanına, malına və namusuna toxunmaq haramdır. Peyğəmbər buyurub: "Namazımızı qılan, qibləmizə üz tutan və kəsdiyimiz (heyvanın ətini) yeyən müsəlmandır, Allah və Rəsulu ona zamindir". (11) Başqa bir yerdə qeyd edir ki, hər xətakar və bidətçi, hər cahil və sapqın nəinki kafir, heç fasiq və günahkar da hesab olunmur. (12) O özünün qəti fikri kimi bildirir ki, biz heç bir qiblə əhlini kafir saymırıq. (13)

Təsadüfi deyil ki, Məlik Nasir həm özünün, həm də İbn Teymiyyənin düşmənləri olan, onu dəfələrlə həbs etdirmiş və öldürülməsini arzulamış qaziləri edam eləmək istəyəndə mane olub deyir: "Məni incidənləri bağışlayıram, Allahı və Peyğəmbəri incidənlərdən isə Allahın Özü intiqam alacaq". (14)

İbn Teymiyyəyə görə, kafir adlandırılan hər adama mürtəd hökmünü icra etmək olmaz: "Bir çox fəqihlər elə bilirlər ki, kafir deyilmiş hər kəsə mürtəd hökmlərini icra etmək lazımdır. Halbuki heç də belə deyil". O, daha sonra insanları iman və küfr baxımından qisimlərə bölüb, Peyğəmbərimizin dövründə imansızlığına heç bir şübhə olmayan münafiq Abdullah ibn Übəyə qarşı müsəlman kimi rəftar olunduğunu yada salır. (15)

İbn Teymiyyənin təkfir haqda daha bir fikri onu mütləq və konkret qisimlərinə ayırmasıdır. O hər hansı firqənin kafir və ya fasiq olduğunu dedikdə konkret şəxsləri deyil, əslində bəlli düşüncə və əməlləri nəzərdə tutur, konkret şəxslərin təkfirində isə hər bir fərd üçün ayrıca şəkildə şərt və maneələrin ciddi araşdırılmasını vacib sayır. (16)

Yuxarıda qeyd olunan və yazının həcminə görə qeyd olunmayan sitatlar göstərir ki, İbn Teymiyyə əsasən Cəhmiyyə, Əliallahlıq, Nüseyriyyə, İsmailiyyə firqələrini, xüsusən də sonuncunun Duruziyyə və Qəramitə qollarını, bəzi filosof və sufiləri kafir saymışdır. O zaman da azlıqda olan bu firqələrin əksəri bu gün ya tükənmiş, ya da etiqadlarında böyük dəyişikliklər baş vermişdir. Bu baxımdan, kimisə təkfir etməyə, müsəlman qardaşlığını pozmağa, iman əhli arasında təfriqə salmağa heç bir əsas yoxdur.

Konkret olaraq, Suriyada mövcud olan Nüseyri firqəsinə gəlincə, qeyd etmək lazımdır ki, əvvəla hakim ailənin indi də bu firqəyə mənsubluğu dəqiq deyil. Belə ki, bayram namazlarından yayılan görüntülər onların Əhli-sünnə məzhəbinə uyğun namaz qıldıqlarını göstərir. İkincisi isə, Nüseyri firqəsi əvvəldə həzrət Əlini ilahiləşdirən ifratçı görüşlərə malik olmuşsa da, onların bugünkü inanclarını görməzdən gəlmək və əsrlər öncəki sələflərinin etiqadlarına görə cəzalandırmaq doğru deyil. Heç bir insanı hətta bir saat qabaqkı fikrinə görə də ittiham etmək olmaz. Halbuki Nüseyri alimləri və icmaları illər öncədən Əlini yalnız imam və Peyğəmbər canişini saydıqlarını elan etmiş, ifratçı və azğın inanclardan uzaqlaşmışlar.

(Ardı var)

---

**Qeydlər:**


1. Ənbiya surəsi, 107.
2. Təbəri, 2/463. Əhli-beyt kitabxanası.
3. Bəzi insanlar haqda ifrata varan, Allaha məxsus olan bəzi atributları peyğəmbər, imam və ya hər hansı şəxsə aid edən mövhumatçı cərəyanlar.
4. İbn Teymiyyə. "Məcmu əl-fətava", 3/356. www.shamela.ws.
5. Yenə orada, 13/263.
6. İbn Kəsir. "Əl-Bidayə vən-nihayə", 14/14. Əhli-beyt kitabxanası.
7. İbn Teymiyyə. "Məcmu əl-fətava", 28/400.
8. Yenə orada, 3/350.
9. İbn Teymiyyə. "Əl-Əqidə əl-vasitiyyə", 1/113, say: 240-241. www.islamspirit.com
10. Yenə orada, 1/119, say: 273.
11. İbn Teymiyyə. "Məcmu əl-fətava", 3/282-283.
12. Yenə orada, 12/180.
13. İbn Teymiyyə. "Dər təaruz əl-əqli vən-nəql", 1/95. www.islamspirit.com
14. İbn Kəsir. "Əl-Bidayə vən-nihayə", 14/61.
15. İbn Teymiyyə. "Məcmu əl-fətava", 7/617.
16. Yenə orada, 28/501.


Vüsal Hüseynzade

# QƏDR GECƏSİ VƏ ONUN ƏMƏLLƏRİ




**İslamda ilin ayları arasında Ramazan ayı ən fəzilətli və müqəddəs ay hesab edilir. Bu ay fəzilət baxımından digər aylardan üstün olduğuna görə bu ayı "on bir ayın sultanı" da adlandırırlar.**

Həzrət Muhəmməd Peyğəmbər (s) bu ayın fəziləti haqqında buyurur: "Ramazan ayı Allahın ayıdır. Bu ayda savablar ikiqat artar, günahlar silinər. Ramazan- bərəkət, tövbə, bağışlanmaq, cəhənnəmdən xilas olmaq və behişt qazanmaq ayıdır. Bu ayda hər cür günahdan çəkinin, Quran oxumağı çoxaldın, Allahdan öz ehtiyaclarınızı istəyin, Rəbbinizi tez-tez xatırlayın. Ramazan ayında oruc tutmadığınız günlərdəki vəziyyətdə olmayın (yəni daha yüksək mənəvi səviyyədə olmağa çalışın)".

Bildiymiz kimi Qədr gecəsi Ramazan ayındadır. Qədr gecəsi "qədir" kəlməsindən gəlir. Yəni o gecə qədir bilənlik xüsusiyyəti aşkar olur. Deməк,O gecənin qədrini bilməliyik ki, qədrimiz bilinsin. Sonsuz mərhəmət sahibi Allah bu gecə layiq olub-olmamasından asılı olmayaraq, hər kəsi müstəsna lütfü ilə əhatə edir. Qədr gecəsi Peyğəmbərimizin ümmətinə hədsiz sevgisindən etdiyi bir duanın qəbul olunmuş şəklidir. Belə ki, əvvəlki insanların ömür müddəti və ya onların ömründən Allahın dilədiyi qədər Peyğəmbərmizə göstərildi. Bunu görən Rəsulullah(s):"Allahım, başqa ümmətlərin uzun ömürdə edə bilmədiyi (xeyirli) əməlləri ümmətimə qısa ömürdə nəsib et", deyə dua etdi. Allah Təala da Ona min aydan daha xeyirli olan Qədr gecəsini bəxş etdi".

Allah Təala Qur'ani-Kərimdə belə buyurur: "Ramazan elə bir aydır ki, insanlara yol göstərən, doğrunun dəlillərini ehtiva edən və doğrunu səhvdən (haqqı batildən) ayıran Quran o ayda endirilmişdir". (əl-Bəqərə, ayə-185).Ramazan ayı on bir ayın sultanı, Qədr gecəsi isə "Gecələrin şahı" adlandırılmışdır və mübarək gecələrin ən üstünü sayılır. Qur'ani Kərimin enməyə başladığı, Ramazan ayının son on günün tək günlərindən biri, İslamda ən müqəddəs və fəzilətli gecə Qədr gecəsidir. Qədr gecəsi min aydan daha xeyirlidir.Qur'ani Kərimdə bu gecənin fəzilətini bildirən müstəqil bir surə də vardır. Bu surədə Uca Allah buyurur:"Həqiqətən, Biz onu (Quranı) Qədr gecəsində nazil etdik! Sən haradan biləsənki, Qədr gecəsi nədir? Qədr gecəsi min aydan xeyirlidir. O gecə Rəbbinin izni ilə mələklər və Ruh (Cəbrail) hər işə görə (yerə) enirlər. O gecə sübh açılanadək əmin-amanlıq olur".(əl-Qədr, 1-5).

Peyğəmbərimiz (s) buyurmuşdur ki, kim bu gecəyə çatarsa,"Allahummə innəkə Afuvvun Kərimun, tuhibbu-l-afva fa'fu annə"duasını oxusun.Yəni,(Allahım Sən Bağışlayansan, Səxavətlisən, bağışlamağı sevirsən,bizi bağışla!).Bəzi adamlar Ramazan ayının son gecələrini səhərədək yatmamaq üçün söhbət, əyləncə, televizor və digər vasitələrlə vaxt keçirirlər. Bu düzgün deyil. Qədr gecəsinə yetişən hər bir müsəlmana o gecənin bir hissəsini faydalı keçirməsi, Allah Təalaya çoxlu dua edib Onu zikr etməsi, Allah Təaladan bağışlanma diləməsi və Quran oxuması ona daha xeyirli olar. Çünki bu gecənin içində elə bir an vardır ki, o anda edilən ibadət və dualar mütləq qəbul olar. Bu önəmli anı eldən verməmək üçün gecənin bir hissəsini tövbə və zikrlə keçirmək lazımdır. Bununla yanaşı, Qədr gecəsinin gündüzü tutulan orucun bütün ili tutulan oruca tən olduğu bildirilmişdir.

Qədr gecəsi heç bir bəla nazil olmaz o, bütünlüklə xeyir-bərəkətdən ibarətdir.O gecə mələklər yer üzündə gəzib Allahın müxlis bəndələrinə salam verərlər.Buna görə də Qədr gecəsi səhərə qədər oyaq qalıb ibadət etmək lazımdır.

Qədr gecəsində aşağdakı əməlləri yerinə yetirmək tövsiyyə olunur:

1. Qüsul almaq. Bu gecənin qusullarini gün batan vaxtı almaq daha yaxşıdır ki, şam namazını qusullu yerinə yetirsin.

2. İki rükət namaz qılmaq. Hər rükətdə "Həmd" surəsindən sonra yeddi dəfə "İxlas" surəsini oxusun və qurtardıqdan sonra yetmiş dəfə "Əstəğfirullahə rəbbi və ətubu iləyh" -desin. Peyğəmbər (s) buyrur: yerindən ayağa qalxmamış (bu insanın) özü və ata-anası Allah təala tərəfindən bağışlanar...

3. Quranı açıq halda qarşınıza qoyaraq belə deyin: "Əllahummə inni əs' ələkə bi-kitabikəl munzəl və ma fihi və fihismukəl-əkbər və əsmaukəl-husna və ma yuxafu və yurca ən təc' ələni min utəqaikə minən-nar"

"Ey Allahım, Sənin dərgahından istəyirəm və nazil etdiyin kitabına və onda olanlara bu kitabda olan böyük və gözəl

adlarına qorxu və ümid yaradan nidalarına xatir məni də oddan xilas olanlardan et" (istəkləri Allah-təaladan dilədikdən sonra Qur'anı başın üzərinə qoyun).

4. Quranı götürüb başınıza qoyub deyin: "Əllahummə bi-həqqi hazəl-Qur'an və bi-həqqi mən ərsəltəhu bih və bi-həqqi kulli mu'minin mədəhtəhu fihi və bihəqqikə ələyhim fəla əhədə ə'rəfu bihəqqikə mink."

"Allahım bu kitabın haqqına xatir kitabını nazil etdiyin Peyğəmbərinin və kitabında mədh etdiyin mö'minlərin haqqına xatir və onların üzərində olan haqqına xatir. Heç kəs sənin haqqını özündən yaxşı bilməz".

5. (Daha sonra aşağıdakı mübarək adların hər biri on dəfə təkrarlanır.)

Bikə ya Allah,Bi Muhəmmədin, Bi Əliyyin, Bi Fatimətə, Bil-Həsəni, Bil-Husəyni, Bi Əliyyibnil-Husəyni, Bi Muhəmməd-ibni Əliyyin, Bi Cəfər ibni Muhəmmədin, Bi Musa ibni Cəfərin, Bi Əliyyibni Musa, Bi Muhəmməd ibni Əliyyin, Bi Əliyyibni Muhəmmədin, Bil Həsən ibni-Əliyyin, Bil-Huccəti.

Sonra öz hacətini istə.İstəklərin ən mühümü olan İmam Zamanın salamatlığını və zuhurunun tezləşməsini Allah-Tealadan diləmək.

6. Yüz rükət namaz qılmağın böyük savabı vardır. Daha fəzilətlisi isə hər rükətdə "Həmd" surəsindən sonra on dəfə "İxlas" surəsini oxumaqdır..

7. Bu gecələrdə ən yaxşı əməl, özünün, ata-ananın, sağ və ya dünyasını dəyişmiş mömin qardaşlarının, dünya və axirət istəklərini istəməklə yanaşı bağışlanmaq diləməkdir. Habelə mümkün qədər Məhəmməd və onun Əhli-beytinə salavat göndərməkdir.

8. Dualardan "Covşən Kəbir" duasını oxumaq daha çox təkid olunub. Belə ki, bu duada Allahın 1001 adı çəkilir və ehtimal olunur ki, Əsmaül-hüsna (Allahın ən gözəl adları) bu adların içərisindədir. Bu duadan sonra hacətlərini Allahdan istəsə onların qəbul olunması ehtimalı böyükdür.

Boynunda qəza namazları olanlar daha yaxşı olar ki, qəza namazı da qılsınlar.

"Rəvayət olunmuşdur ki, İslam peyğəmbərinə deyildi: "Əgər mən Qədr gecəsini dərk edərəmsə, Allahdan nə istəyim?" O həzrət buyurdu: "Sağlamlıq istə."

Allahdan istəyirik ki, bizi bu şərəfli gecəyə rast gələnlərdən və günahlarını bağışladığı qullardan etsin. Amin!

***Bayram Dəvrişov***

# 2016-cı ilin may ayının 23-24-ü Tehran universitetində xarici tələbələrin ölkələrini tanıtımı adlı 6-cı beynəlxalq sərgi keçirildi.



Sərgidə bir çox maraqlı anlarla qarşılaşdıq. Onlardan bir neçəsini sizinlə paylaşmaq istədim.

Deməli ilk olaraq qeyd edim ki, Gürcüstana aid stenddə çox şey olmasa da ancaq iranlıların hər zaman Gürcüstana maraqı fərqli olduğu üçün yaxınlaşıb suallar soruşmaqla ölkəmizlə daha yaxından tanış olurdular.

İlk maraqlı məqamlardan biri Gürcüstan stendinin adı ingilis dilində yazılması idi, yəni "Georgia". Bəzi iranlılar Amerikanın "Georgia" ştatı ila səhv salırdılar. Və çox təəccüblə baxırdılar. (Bu arada bunu da qeyd edim ki, Gürcüstanı ərəblər Georgia olaraq tanıyır. ) Elə buna görə bir çox iranlılar ilk olaraq hansı ölkə olduğunu soruşurdular.

Fars dilində isə Gürcüstana " Qorcestan" deyilir. Bu adı deyəndə Gürcüstana qarşı xoş təəssüratları özünü biruzə verirdi.

Ancaq Gürcüstanı nəyi ila tanımaları da maraqlı idi. Bir çoxu Gürcüstanı gözəl təbiəti, qədimi turistlik yerləri ilə tanıdığını deyirdi, bəziləri məşhur güləşçiləri bəziləri isə əvvəllər futbolçu olmuş Kaxa Kaladze ilə tanıyırdılar.

Başqa maraqlı məqamlardan biri isə gürcü əlifbasına qarşı simpatiyalarının olması idi. Yazılışı çətin olsa da gözəl yazılış formasının olduğunu deyirdilər.

**Kamran mamedov,** Tehran universitedinin Beynalxalq hüquq fakültəsinin maqistr tələbəsi



# MƏHƏMMƏD ƏLI: ƏGƏR YENIDƏN DÜNYAYA GƏLSƏYDIM,İSLAMI 10 YAŞIMDA QƏBUL EDƏRDIM



"Hollywood Walk of Fame" (Hollivud Məşhurlar Xiyabanı) ABŞ Kaliforniya əyalətinin Los Anceles şəhərində məşhurların adlarının yazıldığı piyada (səki) yoludur.

2002-ci ildə isə Məşhurlar Xiyabanı rəsmiləri öz ənənələrini pozaraq İslam dinini qəbul edən amerikalı boksçu Məhəmməd Əlinin adını divara yazıb. Buna səbəb isə İslam dininin iki əhəmiyyətli şəxsinin adını daşıyan boksçunun bu adların ayaq altında qalmasına razılıq verməməsi olub.

Terroristin İslama aidiyyatının olmadığını bildirdi

2001-ci il 11 sentyabr hadisəsindən sonra ticarət mərkəzlərinin birində məşhur boksçu Məhəmməd Əli "CNN" jurnalisti Mak Onelinin:

"11 sentyabr terror hadisəsini gerçəkləşdirən terroristlərlə eyni dini paylaşmaqla nə hiss edirsiniz?"- sualına belə bir cavab verir:

"Siz Hitler ilə eyni dini paylaşan insan kimi nə hiss edirsinizsə, mən də onu..."

"Cəhənnəm atəşinə necə dözəcəksən?"

"Mən siqaret çəkmirəm, amma hər zaman cibimdə kibrit paketi olur. Nə vaxt bir günah işlədəndə, birini yandırıb əlimi atəşə yaxınlaşdırıram və öz-özümə deyirəm: "Əli sən bu atəşə dözə bilmirsən, Cəhənnəm atəşinə necə dözəcəksən?""

Aldığı mükafat və ordenlər

2002-ci ilin noyabr ayının 17-də Əli Birləşmiş Millətlər Təşkilatının sülh elçisi kimi Əfqanıstana səfər edir. O, BMT-nin xüsusi qonağı kimi üç gün ərzində xoşməramlı səfir sifəti ilə Kabildə qalır. 2005-ci il noyabrın 9-da Ağ Evdə keçirilən mərasimdə Əli prezident Corc Buş tərəfindən Azadlıq Medalı ilə təltif edilir. Həmin ilin dekabrın 17-də o, Almaniyanın Ottohan Sülh Qızıl Medalı ilə təltif edilir. Buna səbəb Əlinin ictimai fəaliyyəti idi.

Məhəmməd Əli 2012-ci ilin dekabr ayında Dünya Boks Şurası tərəfindən "boks kralı" elan edilib. Meksikanın kurort şəhərlərindən biri olan Kankuna 70 yaşlı amerikalı boksçu həyat yoldaşı ilə birgə gəlib. Həmin mərasimdə Əlinin başına tac qoyularaq, ona hökmdarlara məxsus olan əsa və çiyinlik verilib.

Ailə həyatı

Əli əvvəllər ofisiant olan ilk həyat yoldaşı Sonji Royi ilə 1964-cü ilin iyulunda tanış olur. Bir ay sonra cütlük ailə həyatı qurur. Royinin müsəlman adətlərinə görə geyinməsindən imtina etməsi onların evliliyinin sona çatmasına səbəb olur. Cütlük 1966-cı il yanvar ayının 10-da boşanır.

1967-ci il avqustun 17-də 25 yaşlı Əli 17 yaşlı Belinda Boyd ilə evlənir. Bundan sonra Belinda İslamı qəbul edir və adını dəyişərək Xəlilə Əli olur. Bu evlilikdən onların 4 övladı- 1968-ci ildə Məryəm, 1970-ci ildə Liban və Cəmilə, 1972-ci ildə isə kiçik Məhəmməd Əli dünyaya gəlir.

Əlinin 1975-ci ildə aktrisa və model Veronika Porşe ilə tanışlığı ikinci evliliyin başa çatması üçüncüsünün baş tutması ilə nəticələnir.

Cütlük 1977-ci ildə evlənirlər. Evləndikləri zaman onların Hana adlı qızları vardı və Veronika ikinci uşağa hamilə idi. 1977-ci ilin dekabrında onların ikinci qızı Leyla dünyaya gəlir. Əli və Veronika 1986-cı ildə boşanırlar.

Elə həmin il Əli köhnə qonşusu Yolanda ilə evlənir. Əli və Yolanda övladlığa uşaq götürür və adını Əsəd qoyublar. Əlinin Miya və Xəlilə adlı iki qızı da var.

Yadda qalan sözləri

"Xəyal qurmayan insanın qanadları olmaz"

"Yuxularını gerçəkləşdirmək üçün ən yaxşı vasitə - oyanmaqdır"

"Uşaqlarınızı, onlar özlərini pis aparanda da, sevin"

"Yalnız ləyaqətli cavab verə bilməyəndə, susmaq qızıldır"

"Mümkün deyil sözü xırda adamların sözüdür. Belə adamlara vərdiş etdikləri həyatı yaşamaq daha asandır, nəinki nəyisə dəyişmək.

Mümkün deyil sözü fakt deyil. Bu sadəcə bir fikirdir. Mümkün deyil sözü hökm deyil. Bu bir iddiadır və özünü təsdiqləməyə bir şansdır. Mümkün olmayan mümkündür".